# QARABAĞ AZƏRBAYCANDIR!



RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 220 (8813) ÇƏRŞƏNBƏ, 13 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV liderliyində möhkəm sülh, etibarlı tərəfdaşlıq platforması

## Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatına rəhbərliyi ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə töhfə verir

**“Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri olan Qoşulmama Hərəkatının yeddi ölkəsinin bizə verdiyi dəstək olduqca dəyərlidir. Onlar BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinə istinadın edilmədiyi birtərəfli mətbuat açıqlamasının qəbul edilməsinə imkan vermədilər. Bununla da, həmin ölkələr Qoşulmama Hərəkatının sənədlərindən qaynaqlanan Hərəkatın prinsipial mövqeyinə möhkəm sadiqliyini nümayiş etdirdilər”.**

Serbiyanın paytaxtı Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantıda çıxış edən təşkilatın Sədri, Prezident İlham Əliyev üzv dövlətlər tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin daim dəstəklənməsini yüksək qiymətləndirdi. Prezident çıxışında həm Vətən müharibəsinin nəticələri, həm qlobal pandemiya ilə mübarizə tədbirləri çərçivəsində görülən işlərdən danışdı, həm də maraqlı təkliflə çıxış etdi.

### Azərbaycan bütün ölkələrin suverenliyi və ərazi bütövlüyü prinsiplərini tam dəstəkləyir

120 üzv və 17 müşahidəçi dövləti, eyni zamanda, 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatı müasir beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm platformadır.

Dünyadakı mövcud dövlətlərin üçdəikisini əhatə edən bir təsisatın mühüm toplantılarında müzakirə edilən məsələlər BMT Baş Assambleyasının gündəliyinin formalaşmasına böyük təsir göstərir. Bu, həm də onu göstərir ki, əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan Hərəkat konkret tarixi kontekstdə yaranmasına baxmayaraq, müasir dünyada da öz aktuallığını itirməyib və bu qurum beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən biridir.

İlham Əliyev vurğuladı ki, BMT Baş Assambleyasından sonra ikinci ən böyük təsisat olan Qoşulmama Hərəkatı müxtəlif regionları əhatə edərək fərqli tarixi, siyasi və mədəni mənsubiyyətə malik 120 ölkəni birləşdirməklə, multilateralizmin həqiqi nümunəsi hesab edilir.

*Ardı 3-cü səh.*

# Azərbaycan-Türkiyə əlaqələri bütün sahələrdə genişlənir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Türkiyə Respublikasının ətraf mühit və şəhərsalma naziri Murat Kurumu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nazir Murat Kurum Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Türkiyənin ətraf mühit və şəhərsalma nazirinin ölkəmizə səfərinin Azərbaycan və Türkiyənin müvafiq qurumları arasında əlaqələrin genişləndirilməsinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

Söhbət zamanı işğal dövründə ermənilərin Azərbaycan torpaqlarında təbiətə böyük ziyan vurması, meşələri kütləvi surətdə qırması, çayları çirkləndirməsi barədə danışıldı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan Tayhu Dünya Mədəniyyət Forumunda fəxri qonaq ölkə statusunda iştirak edir

Çin Xalq Respublikasının Benbu şəhərində Tayhu Dünya Mədəniyyət Forumunun 6-cı illik konfransı başlayıb.



AZƏRTAC xəbər verir ki, Çində mədəniyyət sahəsində ən böyük tədbir olmaqla yanaşı, dünyada da bu istiqamətdə nüfuzlu müzakirə platformalarından olan Tayhu Forumunun builki devizi “Sivilizasiyaların qarşılıqlı öyrənilməsi: bəşəriyyət üçün birgə gələcəyin qurulması”dır. Forumun tarixində ilk dəfədir bir dövlət “Fəxri qonaq ölkə” statusunda iştirak edir. Son illər dünyada nüfuzu sürətlə artan Azərbaycan Tayhu Forumunun ilk “Fəxri qonaq ölkəsi”dir. Bundan başqa, Heydər Əliyev Fondu forumun təşkilatçıları sırasındadır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov oktyabrın 12-də açılış mərasimində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Tayhu Dünya Mədəniyyət Forumunun 6-cı illik konfransının iştirakçılarına müraciətini videoformatda çatdırıb. Müraciətdə qeyd olunur ki, Çin Xalq Respublikasının himayəsi ilə keçirilən bu beynəlxalq tədbirin nüfuzu ilbəil artır və Tayhu Forumu dünyanın bir çox ölkəsindən görkəmli siyasətçiləri, alimləri, yaradıcı ziyalıları yenə də bir araya toplamaqla mədəniyyətlərarası dialoqa öz əhəmiyyətli töhfəsini verir. “Çin Xalq Respublikasının sədri cənab Si Cinpinin “Sivilizasiyalararası dialoq: bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması” təşəbbüsünə həsr edilmiş builki foruma Azərbaycanın fəxri qonaq statusunda dəvət edilməsi, eləcə də Heydər Əliyev Fondunun tədbirin əsas həmtəşkilatçılarından biri kimi çıxış etməsi məmnunluq doğurur.

“Dünyanın indiki həssas və təlatümlü dövründə “Sivilizasiyalararası dialoq: bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması” mövzusunun müzakirəsinə ciddi ehtiyac vardır.

*Ardı 2-ci səh.*

## “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının təliminə dair” Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının təliminə dair” 2021-ci il iyulun 2-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

# Öz şərəf və ləyaqətinə hörmət edən...

## Azğınlaşmış sözü necə cilovlamalı?..

**İnsan istədiyi kimi düşünməkdə, ürəyində necə bilirsə, elə də danışmaqda sərbəstdir.**

**Necə deyərlər, bunu ona qadağan etmək mümkün deyil!**

**Həm də məntiqə sığmır!**

*Axı deyilməyən sözə, gerçəkləşməyən fikrə görə (üstəlik, əgər onu kimsə hələ eşidib, bilmirsə) insana necə qadağa qoymaq, onu cəzalandırmaq olar!*

Bu məntiqdən çıxış edərək söz və fikir azadlığını demokratiyanın təməl prinsiplərinə aid ediblər.

Bəli, bu prinsipə görə hər bir insan necə istəsə düşünə və danışa bilər.

❖ ❖ ❖

Dövlət müstəqilliyi qazandıqdan sonra demokratik inkişaf yolu tutan Azərbaycan demokratiyanın bu tələbinə daim əməl edir.

**Ulu Öndər Heydər Əliyevin 6 avqust 1998-ci il fərmanına əsasən, mətbuata senzura nəzarəti ləğv olunmuşdur. Yeni qəbul edilmiş Konstitusiyamız isə fikir plüralizmini, çoxpartiyalı sistemin mövcudluğunu təmin etmişdir.**

Bu gün Azərbaycanda qəzet təsis etmək, sayt yaratmaq, QHT açmaq, partiya qurmaq və işə başlamaq su içmək qədər asandır.

On milyonluq ölkədəki siyasi partiya, QHT, qəzet və sayt bolluğu da dediklərimizin təsdiqidir.

**Sosial şəbəkə azadlığı isə hüdudsuzdur!**

**İnternetə girişi olan hər kəs burada istədiyini deyə, yaza, keyfi istədiyi kimi hallandıra bilir.**

Nə yoxlayan var, nə qadağan edən!

Nə də doğru ilə yalanlığını araşdırıb qiymətləndirən!

*Artıq bu da bir gerçəklikdir ki, insanlar sözün bu sayaq azadlığından əziyyət çəkirlər!*

*Təkcə Azərbaycanda yox, bütün dünyada!*

**Əslində sözdən belə istifadə onun azadlığından da o tərəfə keçərək azğınlaşdırır!**

**Söz tənqid etmir, təhqirə keçir, aşağılayır!**

**Söz həqiqəti söyləmir, doğrunu demir, şər-böhtana çevrilərək yaralayır!**

*Ardı 3-cü səh.*

# Qarabağa işıq gəlir

**İşğaldan azad edilmiş ərazilərimizdə bərpa və abadlaşdırma işləri geniş vüsət alıb. Sürətlə davam edən yenidənqurma tədbirləri sırasında bütün kənd və şəhərlərin elektrik təchizatı xüsusi önəm kəsb edir.**

Bu da təsadüfi deyil. Çünki elektrik enerjisi bir çox digər sahələrin inkişafını təmin edir, nəticə etibarilə insanların doğma yurd-yuvalarına qayıtmasını tezləşdirir.

Beləliklə, Qarabağ getdikcə daha çox nura boyanır. Prezident İlham Əliyev regiona hər səfəri zamanı yeni enerji obyektlərinin açılışını edir. Bu ayın əvvəlində dövlət başçısının xeyir-duası ilə daha üç stansiya fəaliyyətə başladı.

*Ardı 4-cü səh.*



## Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu arasında məktublar mübadiləsi formasında bağlanmış Sazişin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu arasında 2019-cu il mayın 31-də və iyunun 21-də imzalanmış məktublar mübadiləsi formasında bağlanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2021-ci il*

## Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2021-ci ildə Azərbaycan xalça rəssamlığı sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı, professor Kamil Müseyib oğlu Əliyevin anadan olmasının 100 illiyi tamam olur.

Kamil Əliyev bütün ömrünü xalqımızın mədəniyyəti tarixində müstəsna yer tutan xalçaçılıq sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına sərf etmişdir. Fitri istedada malik rəssam milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ motivlər yaratmış, Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni ornamentlərlə zənginləşdirmişdir. Kompozisiya özünəməxsusluğu, rəng ahəngdarlığı və süjet əlvanlığı rəssamın Azərbaycan xalçaçılıq məktəblərinin xüsusiyyətlərini özündə cəmləşdirən çeşnilər əsasında toxunmuş xalçalarının başlıca səciyyəvi cəhətləridir. Onun qüdrətli söz dühalarına, görkəmli siyasi xadimlərə həsr olunan və yüksək professionallığı, bədii-estetik mükəmməlliyi ilə seçilən portret-xalçaları incəsənətimizin qızıl fondunun qiymətli nümunələrindəndir. Kamil Əliyevin əsərləri dünyanın mötəbər muzey, qalereya və sərgi salonlarında dəfələrlə nümayiş etdirilmişdir. Böyük sənətkar xalçaçı kadrların hazırlanması işinə mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalçaçılığı və dekorativ-tətbiqi sənəti ənənələrinin qorunub saxlanılmasında və yeni inkişaf mərhələsinə yüksəldilməsində görkəmli xalçaçı-rəssam Kamil Əliyevin təqdirəlayiq xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Rəssamlar İttifaqının təkliflərini nəzərə almaqla, Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2021-ci il*

## Azərbaycanın xarici işlər naziri Belqradda Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib

Qoşulmama Hərəkatının 60 illik yubileyi münasibətilə Belqradda keçirilən yüksəksəviyyəli tədbir çərçivəsində nazir Ceyhun Bayramov Serbiya paytaxtında yerləşən Taşmaydan parkına gələrək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin burada ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir həmçinin həmin parkda ucaldılmış görkəmli serb yazıçısı Milorad Paviçin heykəlini və 1999-cu ildə Belqrad şəhərinin bombalanması zamanı həlak olmuş uşaqların xatirəsinə ucaldılmış "Biz, sadəcə, uşaqlar idik" abidəsini ziyarət edib, hər iki abidənin önünə gül dəstələri qoyub.

## Xarici işlər naziri Ceyhun Bayramov Serbiyada bir sıra görüşlər keçirib

Oktyabrın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Belqradda keçirilən Qoşulmama Hərəkatının 60 illik yubiley tədbiri çərçivəsində Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç tərəfindən qəbul edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan və Serbiya arasında yüksək xətlə inkişaf edən əməkdaşlıq məmnunluqla vurğulanıb, strateji münasibətlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə iki ölkə arasında imzalanmış sənədlərin əhəmiyyətinə toxunulub və bu sazişlərin ikitərəfli əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyi qeyd olunub.

Serbiya Prezidenti Aleksandr Vuçiç Azərbaycan Prezidenti İlham Əliyevi Serbiyaya rəsmi səfər etməklə bağlı dəvətini çatdırmağı xahiş edib.

Görüşdə, eyni zamanda, qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Xarici işlər naziri Ceyhun Bayramov Belqradda keçirilən Qoşulmama Hərəkatının 60 illik yubiley tədbiri çərçivəsində Serbiya Respublikasının xarici işlər naziri Nikola Selakoviç ilə görüşüb.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Serbiya Xarici İşlər Nazirliyində keçirilən görüş zamanı nazirlər Azərbaycan və Serbiya arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyətindən məmnunluq ifadə edərək bu əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsində qarşılıqlı marağı ifadə ediblər.

Tərəflər Azərbaycan Respublikası və Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətinin uğurla inkişaf etdiyini qeyd ediblər.

Görüşün sonunda nazirlər tərəfindən bir saziş və iki anlaşma memorandumu, o cümlədən "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında saziş", "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Serbiya XİN arasında siyasi məsləhətləşmələr haqqında anlaşma memorandumu", "Azərbaycan XİN ilə Serbiya XİN arasında konsulluq sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu" sənədləri imzalanıb.

Qeyd etmək istərdik ki, eyni gündə AR müdafiə sənayesi naziri Mədət Quliyev və Serbiya müdafiə naziri Neboyşa Stefanoviç arasında "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Hərbi-Texniki əməkdaşlıq haqqında saziş" imzalanıb.

❖ ❖ ❖

Oktyabrın 11-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov Belqradda keçirilən Qoşulmama Hərəkatının 60 illik yubileyi ilə bağlı yüksəksəviyyəli görüş çərçivəsində Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Milorad Dodik ilə görüşüb.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüşdə tərəflər Azərbaycan ilə Bosniya və Herseqovina arasında ikitərəfli əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar, iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov keçmiş münaqişənin həlli ilə bağlı Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinə Bosniya və Herseqovinanın hər zaman dəstək verdiyini məmnunluqla qeyd edib.

Milorad Dodik COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycanın göstərdiyi yardıma görə təşəkkürünü ifadə edib.

Görüşdə tərəflər qarşılıqlı şəkildə səfirliklərin açılması prosesinin sürətləndirilməsinin münasibətlərin daha da inkişafına təkan verəcəyini vurğulayıblar.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

❖ ❖ ❖

Oktyabrın 12-də Serbiyanın paytaxtı Belqradda keçirilən Qoşulmama Hərəkatının 60 illik yubileyi ilə bağlı yüksəksəviyyəli görüş çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov kamerunlu həmkarı Löjön Mbella Mbella ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, nazir Ceyhun Bayramovu Qoşulmama Hərəkatının 60 illik yubileyinə həsr olunmuş tədbirin uğurla keçirilməsi münasibətilə təbrik edən Kamerunun xarici işlər naziri Azərbaycanın təşkilatın sədri kimi beynəlxalq əhəmiyyətli təşəbbüslərini və uğurlu fəaliyyətini məmnunluqla qeyd edib.

Görüşdə nazirlər ikitərəfli əlaqələr ətrafında fikir mübadiləsi aparıb, bu xüsusda siyasi məsləhətləşmələrin intensivləşdirilməsinin vacibliyini qeyd ediblər.

Azərbaycan ilə Kamerun arasında iqtisadi əməkdaşlıq əlaqələrinin inkişaf potensialı qeyd edilib.

Görüşdə tərəflər, eyni zamanda, qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

## Milli Məclis "Müstəqillik Günü haqqında" qanun layihəsini ikinci oxunuşda qəbul etdi

Oktyabrın 12-də Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib.





Cari məsələlərin müzakirəsində deputatlar Ceyhun Məmmədov, Razi Nurullayev, Tahir Kərimli, Fazil Mustafa, İltizam Yusifov, Əminə Ağazadə, Cəbi Quliyev, Tural Gəncəliyev, Bəhruz Məhərrəmov, Şahin İsmayılov Vətən müharibəsində qazanılan Zəfərin birinci ildönümü ərəfəsində ölkəmizdə baş verən mühüm ictimai-siyasi hadisələrdən, işğaldan azad olunmuş bölgələrdə aparılan quruculuq işlərindən, Azərbaycan gənclərinin xaricdə təhsil almasına göstərilən qayğıdan söz açıblar. Həmçinin deputatlar seçicilərini düşündürən məsələlərə - səhiyyədəki, şəhərlərarası sərnişindaşımadakı vəziyyətə, bölgələrdə suvarma suyu probleminə, bəzi məktəb binalarının qəzalı vəziyyətdə olmasına, ucqar kəndlərdə internet sürətinin zəifliyinə və s. diqqət yönəldiblər.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəlikdə bir məsələ - "Müstəqillik Günü haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəsi var.

Plenar iclasda "Müstəqillik Günü haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli öncə birinci oxunuş zamanı çıxış etmiş deputat həmkarlarına təşəkkürünü çatdırıb. Parlamentə Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş bu qanun layihəsinin məzmununun, məntiqinin və zərurətinin müzakirələrdə düzgün şərh edilərək Azərbaycan cəmiyyətinə çatdırıldığını qeyd edib.

Məlumat verilib ki, sözügedən qanun layihəsinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində müzakirəsi zamanı səslənən fikirlər - qanunun preambulası ilə əlaqədar, texniki redaktə xarakterli və digər səpkili bir sıra təkliflər qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılıb və yeni variantda öz əksini tapıb. Həmin dəyişiklikləri deputatların nəzərinə çatdıran Əli Hüseynli birinci oxunuş zamanı səslənmiş bir sıra fikirlərə də münasibətini açıqlayıb.

Sonra iclasda "Müstəqillik Günü haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəsinə başlanıb. Öncə qanun layihəsi əsas kimi qəbul olunub.

Müzakirələrdə Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, komitə sədrləri Zahid Oruc, Tahir Mirkişili, deputatlar Nizami Cəfərov, Əziz Ələkbərov, İsa Həbibbəyli, Fazil Mustafa, Musa Qasımlı, Qüdrət Həsənquliyev, Sahib Alıyev, Hikmət Məmmədov, Erkin Qədirli qanun layihəsinə dair rəy və təkliflərini bildiriblər.

Birinci vitse-spiker, komitə sədri Əli Hüseynli çıxışlara münasibət bildirib, deputatları maraqlandıran sualları cavablandırıb. Qeyd olunub ki, ikinci oxunuş zamanı parlamentdə səslənmiş təkliflər də qanunvericilik təşəbbüsü subyektinin diqqətinə çatdırılacaq.

Müzakirələrin yekununda "Müstəqillik Günü haqqında" qanun layihəsi öncə maddə-maddə, sonra isə bütövlükdə səsə qoyulub və ikinci oxunuşda qəbul edilib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Mili Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti Rusiyaya səfər edib

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlamentin nümayəndə heyəti 3-cü Avrasiya Qadın Forumunda iştirak etmək üçün oktyabrın 12-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səfər edib.



Milli Məclisin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədri Hicran Hüseynova, deputatlardan Pərvin Kərimzadə, Sevinc Fətəliyeva, Ülviyyə Həmzəyeva, Fatma Yıldırım və digər rəsmi şəxslər daxildirlər.

Sankt-Peterburqun "Pulkovo" hava limanında nümayəndə heyətini ölkəmizin Sankt-Peterburq şəhərindəki Baş konsulu Sultan Qasımov, Sankt-Peterburq şəhərinin Xarici Əlaqələr üzrə Komitə sədri Yevgeni Qriqoryev, Milli Məclisin MDB PA-dakı daimi nümayəndəsi Aydın Cəfərov və digər rəsmi şəxslər qarşılayıblar.

Sankt-Peterburqun Tavriya sarayında keçiriləcək forumda Milli Məclis Sədrinin çıxışı nəzərdə tutulub. Forumda nümayəndə heyətinin üzvləri tədbirdə müzakirə olunan məsələlərə Azərbaycan tərəfinin münasibətini bildirəcək, öz fikirlərini açıqlayacaqlar.

Səfər çərçivəsində parlamentin Sədri Sahibə Qafarovanın tədbirdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri də gözlənilir. Bu görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılacaq.

Səfər oktyabrın 14-də başa çatacaq.

## Azərbaycan Tayhu Dünya Mədəniyyət Forumunda fəxri qonaq ölkə statusunda iştirak edir

*Əvvəli 1-ci səh.*





Xüsusilə, dünyanı çənginə almış COVID-19 pandemiyasının yaratdığı mürəkkəb vəziyyət və bəşəriyyətin qarşılaşdığı çağırışlar sivilizasiyalararası dialoqun və qarşılıqlı dəstəyin nə qədər vacib olduğunu bir daha təsdiqləyir.

Azərbaycanda dövlət siyasətinin əsas prioritetlərindən biri də multikulturalizmdir. Multikulturalizm xalqımızın həyat və yaşam tərzini özündə əks etdirən mühüm dəyərlərdəndir. Məhz bu səbəbdən müxtəlif mədəniyyətlərin nümayəndələrinin bir araya gəlməsini və qlobal problemlərin həlli istiqamətində müzakirələri vacib sayır və Tayhu Forumunun builki toplantısı çərçivəsində də bu məsələlərin diqqət mərkəzində saxlanılacağına inanırıq", - deyə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müraciətində bildirilir.

Forumun müxtəlif bölmə iclaslarında mədəni müxtəlifliyin təşviqi, "Bir kəmər, bir yol" sivilizasiyanın keçmişi və gələcəyi, iqlim dəyişikliyinə qarşı birgə mübarizə, yoxsulluğun azaldılması, bəşəriyyət üçün birgə gələcəyin qurulmasında elm və texnologiyanın dəstəyi mövzuları müzakirə olunur. Tayhu Dünya Mədəniyyət Forumu Çin hökumətinin dəstəyi ilə 2008-ci ildə yaradılıb. 2011-ci ildən illik iclasları keçirilməyə başlanılıb. Forumda dünyanın bir çox ölkələrindən görkəmli siyasətçilər, ekspertlər, mütəxəssislər, iş adamları iştirak edir.

Qeyd edək ki, budəfəki forum çərçivəsində Tayhu Dünya Mədəniyyət Forumunun mənzil-qərargahının yerləşdiyi "Qədim Məskənlər Parkı"nda Heydər Əliyev Fondu tərəfindən yaradılan "Azərbaycan Mədəniyyətinə Pəncərə" adlı milli pavilyonu fəaliyyətə başlayıb.

Əldə olunmuş razılığa əsasən Azərbaycan pavilyonu uzunmüddətli əsasda fəaliyyət göstərəcək. Çinin ən iri turizm layihələrindən olan "Qədim məskənlər" mədəniyyət parkını hər il ziyarət edəcək milyonlarla qonaq bu pavilyonda Azərbaycanın tarixi, mədəniyyəti, müasir həyatı barədə ətraflı məlumat əldə edə biləcək. Forum iştirakçılarına Azərbaycan pavilyonunun təqdimatı edilib, "Spirit of Azerbaijan" adlı videoçarx nümayiş olunub. Pavilyonun açılışı ilə bağlı rəsmi sənədi Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Van Çen və Azərbaycanın Çin Xalq Respublikasındakı səfiri Əkrəm Zeynallı imzalayıblar.

"Sivilizasiyalararası dialoq: bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması" mövzusunda keçirilən plenar sessiyasında isə Heydər Əliyev Fondunun beynəlxalq əlaqələr departamentinin rəhbəri video formatda çıxış edib. Plenar sessiyada, eyni zamanda, Anhoy əyalətinin qubernatoru, Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi, ÇXR-in sabiq xarici işlər naziri, Çili və İspaniyanın sabiq dövlət və hökumət başçıları, eləcə də UNESCO-nun sabiq baş direktoru İrina Bokovanın çıxışları olub.

Oktyabrın 13-dək davam edəcək forum çərçivəsində "Dünyada mədəni müxtəlifliyin təbliğ edilməsi və bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması", "Elmi-texnoloji tərəqqi bəşəriyyət üçün ortaq gələcəkli cəmiyyətin birgə qurulması üçün yardımçı kimi çıxış edir" və digər mövzularda paralel sessiyalar da keçiriləcək.

# İLHAM ƏLİYEV liderliyində möhkəm sülh, etibarlı tərəfdaşlıq platforması

## Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatına rəhbərliyi ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə töhfə verir



*Əvvəli 1-ci səh.*

Suverenlik və ərazi bütövlüyünə hörmət, təcavüz aktlarından çəkinmə, başqalarının daxili işlərinə qarışmama kimi prinsipləri özündə ehtiva edən tarixi Bandunq prinsipləri Qoşulmama Hərəkatının təməlində dayanır. Bu prinsiplər müasir beynəlxalq münasibətlərdə aktual və vacib olaraq qalır: “Əgər bütün ölkələr Bandunq prinsiplərinə riayət etsəydilər, onda biz dünyada müharibələr və münaqişələr görməzdik. Zor tətbiq etməklə dövlətlərin ərazi bütövlüyünün pozulması qətiyyən qəbuledilməzdir. Azərbaycan bütün ölkələrin suverenliyi və ərazi bütövlüyü prinsiplərini tam dəstəkləyir”.

Prezident həmçinin dedi ki, sülhün, təhlükəsizliyin, beynəlxalq hüququn və ədalətin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatı ailəsinə qoşulmaq qərarına gəlib və qısa müddət ərzində ölkəmiz bu hərəkatın üzvləri arasında böyük etimad və hörmət qazanıb. Azərbaycan 2016-cı ildə təşkilatın liderlərinin yekdil qərarı ilə 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçilib.

Əgər 2011-ci ildə 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməyi böyük diplomatik uğur idisə, Qoşulmama Hərəkatına sədrliyin ölkəmizə həvalə olunması isə qlobal miqyasda artan nüfuzun əyani təzahürü idi.

2019-cu ildə Bakıda keçirilən Qoşulmama Hərəkatının 18-ci Zirvə Toplantısındakı çıxışını xatırladan Prezident dedi ki, həmin vaxt Azərbaycanın sədrliyinin prioritetlərini açıqlayarkən bu fikirləri səsləndirmişdi: “Azərbaycan fəaliyyətini Bandunq prinsipləri əsasında quracaq, ədaləti və beynəlxalq hüququn normalarını qətiyyətlə müdafiə edəcəkdir. Azərbaycan tamamilə müstəqil daxili və xarici siyasət yürüdür, daxili işlərinə bütün müdaxilə cəhdlərini effektiv şəkildə neytrallaşdırır”.

Bakı Zirvə görüşündəki çıxışında isə Prezident vurğulamışdı ki, Qoşulmama Hərəkatının digər təsisatlarla dialoqunun inkişaf etdirilməsi və əməkdaşlığın coğrafiyasının genişləndirilməsi Azərbaycanın sədrliyinin prioritetləri sırasında olacaq. Belə də oldu. Qısa zamanda Azərbaycan sədrliyi dövründə digər beynəlxalq təsisatlarla körpülərin yaradılmasına müvəffəq oldu. Tarixdə ilk dəfə Avropa İttifaqının rəhbərləri Qoşulmama Hərəkatının Zirvə görüşündə iştirak etdilər. Daha sonra Avropa İttifaqına üzv dövlətlər Qoşulmama Hərəkatının BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünü dəstəklədilər.

### Azərbaycan “peyvənd millətçiliyi”nə qarşı narazılığını açıq şəkildə ifadə etməkdədir

İlham Əliyevin söylədiyi kimi, Azərbaycan özünün sədrliyi dövrü üçün müfəssəl və ambisiyalı fəaliyyət planı qəbul etdi. Təəssüflər olsun ki, COVID-19 pandemiyası ağır fəsadlar verdi, yeni reallıqlar və çətinliklər yaratdı. Ancaq yeni reallıqlara hər zaman çevik və adekvat reaksiya verən Azərbaycan regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verdi. Böhrandan az itki ilə çıxmaq üçün tədbirlər gördü, həmçinin təcrübəsini hərəkata üzv dövlətlərlə və başqa ölkələrlə də bölüşdü.

Prezident qeyd etdi ki, dünya 2020-ci ilin əvvəlində COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycan Hərəkatda sədrliyinə məsuliyyətlə yanaşıb və pandemiya nəticəsində yaranmış təhdidlərə vaxtında və adekvat cavab verilməsi üçün ciddi səylər göstərib. Azərbaycan pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürüb: “Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və onu təşkil etmişik. Zirvə toplantısının praktiki nəticəsi olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin əsas humanitar və tibbi ehtiyaclarını əhatə edən məlumat bazası yaradılmışdır. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin mövcud ehtiyaclarının təmin edilməsi üçün həmin məlumat bazasından istinad mənbəyi kimi istifadə edir”.

Xatırladaq ki, Zirvə toplantısında İlham Əliyev təklif irəli sürərək BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsinin vacibliyini söyləmişdi. Bu təklif 150-dən artıq ölkənin dəstəyini almışdı. 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş, dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi Azərbaycan Prezidentinin təşəbbüsü əsasında reallaşmışdı.

Prezident vurğuladı ki, bundan başqa, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi verib. Bu maliyyə yardımının yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa çatdırılıb. Bununla yanaşı, koronavirusa qarşı mübarizəni dəstəkləmək üçün Azərbaycan Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərib, təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə edib.

İlham Əliyev bir daha peyvəndlərin qeyri-bərabər formatda paylanılması prosesinə etirazını bildirdi: “Azərbaycan “peyvənd millətçiliyi”nə və peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınmasına qarşı narazılığını açıq şəkildə ifadə etməkdədir. Belə hərəkətlər Qoşulmama Hərəkatına üzv ölkələri öz əhalisini qorumaq imkanından məhrum edir. Peyvəndlərə çıxış sahəsində fərq çox böyükdür. Beynəlxalq hesabatlara əsasən, dünyada mövcud olan peyvənd dozalarının 75 faizi 10 zəngin ölkə tərəfindən alındığı halda, aşağı gəlirli ölkələrdə isə peyvəndlənmə 2 faizdən azdır”.

Prezident vurğuladı ki, bu ilin mart ayında Azərbaycanın təşəbbüsü əsasında BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsinə dair qətnamə qəbul edilib. BMT Baş Assambleyasının cari sessiyası çərçivəsində də Azərbaycan eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır və Qoşulmama Hərəkatının üzv dövlətlərinin dəstəyinə arxalanır.

### Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı

“Təəssüflər olsun ki, beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qərarları ilə bağlı ikili standartlar və selektiv yanaşmanın tətbiqi dünyada münaqişələrin ədalətli həllinə mənfi təsir göstərir. Azərbaycan da son 30 il ərzində belə selektiv yanaşmaya məruz qalıb”.

İkinci Qarabağ müharibəsinin başlanma səbəblərinə bir daha aydınlıq gətirən İlham Əliyev dedi ki, beynəlxalq münasibətlərdə yaranan ikili standartlardan istifadə edən Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq təqribən 30 il ərzində Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlaya bildi. Həm öz ərazisində, həm də işğal etdiyi Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdi. 1992-ci ilin fevralında Xocalı soyqırımını törədərək yüzlərlə mülki şəxsi, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirdi. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün doğma evlərinə qayıtmaq hüququ da daxil olmaqla, əsas insan hüquqlarını pozdu.

Lakin hərbi təcavüzə və 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasından yayınmasına baxmayaraq, Ermənistana qarşı sanksiyalar tətbiq olunmadı. Təcavüzkar dövlətlə işğala məruz qalan dövlət arasında fərq qoyulmadı. Əksinə, Ermənistan işğalı möhkəmləndirir, hərbi cinayətlər törədir, qanunsuz məskunlaşdırma və təbii sərvətlərimizin qeyri-qanuni istismarını həyata keçirir, Azərbaycan xalqının mədəni və dini irsini məhv edirdi.

Cəzasızlıqdan həvəslənən Ermənistan daha da irəliyə gedərək Azərbaycanı yeni torpaqlar uğrunda yeni müharibə ilə hədələyir, dövlət sərhədi və keçmiş təmas xətti boyu hərbi təxribatlara əl atırdı.

2020-ci il sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı genişmiqyaslı hərbi hücum törətdi. Buna cavab olaraq Azərbaycan Ordusu öz ərazimizdə əks-hücum əməliyyatına başladı və işğal olunmuş torpaqlarımızı azad etdi:

“44 günlük Vətən müharibəsi nəticəsində tamamilə məğlub edilmiş Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur oldu. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd etdiyim qətnamələrinin icrasını təmin etdi, 30 illik münaqişəyə son qoydu və hərbi-siyasi yollarla ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı”.

### Qoşulmama Hərəkatının sədrindən maraqlı təklif

Bu il hərəkata üzv olan dövlətlər yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il - 2023-cü ilin sonuna qədər uzadılması barədə qərar veriblər. İlham Əliyev bunu Azərbaycanın Hərəkata uğurlu və səmərəli sədrliyinə verilən qiymətin əlaməti kimi yüksək dəyərləndirdi və qeyd etdi ki, Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində həmrəyliyin bundan sonra da möhkəmləndirilməsi və Hərəkatın siyasi çəkisinin və qlobal nüfuzunun artırılması istiqamətində fəaliyyətinə davam edəcək.

İlham Əliyev hər zaman olduğu kimi, yenə də maraqlı təklif irəli sürdü. Prezident dedi ki, Azərbaycan COVID-19-dan sonrakı dövr üçün fikir mübadiləsinin aparılması və Hərəkatın mövqeyinin formalaşdırılması məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin yüksək səviyyəli iclasının keçirilməsini təklif edib: “BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılması təklifinin Qoşulmama Hərəkatı tərəfindən təşviq edilməsi məqsədəuyğun olardı. Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentariləri arasında əməkdaşlığın inkişafı ilə bağlı addımlar atır. Bir həftə bundan əvvəl Azərbaycan sədr kimi Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin təsis iclasını keçirdi. Mən təklif edirəm ki, Qoşulmama Hərəkatına üzv dövlətlər artıq təsisatlanma ideyası üzərində düşünsünlər. Azərbaycan sədr qismində məsləhətləşmələr apararaq, Hərəkata üzv dövlətlərin bununla bağlı mövqeyini öyrənəcəkdir”.

İlham Əliyev Qoşulmama Hərəkatının Sədri kimi əminliklə vurğuladı ki, Azərbaycan beynəlxalq münasibətlərdəki qlobal çağırışların həlli istiqamətində Hərəkatın rolunun daha da gücləndirilməsi, habelə ədalətin, beynəlxalq hüququn və təşkilata üzv dövlətlərin legitim maraqlarının müdafiəsi istiqamətində səylərini əsirgəməyəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Öz şərəf və ləyaqətinə hörmət edən...

## Azğınlaşmış sözü necə cilovlamalı?..

*Əvvəli 1-ci səh.*

Suyu çox içəndə dərd verir o da! - deyib dahi Nizami Gəncəvi...

Hələ doqquz əsr bundan qabaq!..

**Bəs azğınlaşmış sözlə necə mübarizə aparmalı?**

**Dərisi üç qəpiyə dəyməyən ədəbsiz və tərbiyəsiz insanların qarşısını necə, nə sayaq almalı?**

**Ziyalıların, məmurların, tanınmış şəxslərin, lap elə sadə insanların söyülməsinə, təhqir olunub aşağılanmasına kənardan durub baxmalıyıq?!**

*Doğrudur, Konstitusiyamız, qanunlarımız sözə, söylənilən fikrə görə kiminsə cəzalandırılmasına yol vermir!*

*Amma söhbət söyüşdən, təhqirdən, insanın şərəf və ləyaqətinin alçaldılmasından gedir!*

**Qanun öz yerində!**

**Bəs ictimai rəy?**

**Bəs belələrinin bəd əməllərinə qarşı cəmiyyətdə niyə müqavimət yoxdur!**

**Niyə ictimai rəy belələrini qınaq obyektinə, ictimai təpkiyə tuş etmir?**

**Hərə özünü, öz başını qorumaqla bu özbaşınalıq azalmaz, əksinə, artar, davam edər!**

*Axı qanunun işləmədiyi yerdə ən güclü vasitə cəmiyyətin təpkisi, insanların qınağı, ictimai rəyi ola bilər.*

*Başqası söyüləndə, təhqir ediləndə ləzzət alanlar unutmasınlar ki, onlar da nə vaxtsa azğın sözə tuş gələ, haqlı, ya haqsız təhqir edilə bilərlər!*

### SÖZ AZADLIĞI ŞƏRƏF VƏ LƏYAQƏT HİSSİNƏ QARŞI ÇEVRİLƏNDƏ

Əlli ildən çoxdur ki, jurnalistikada qələm çalıram.

Heç zaman, heç kəsi təhqir etməmişəm.

Doğrudur, ömrüm boyu ən müxtəlif janrlarda tənqidi yazılar yazmışam!

**Amma bir dəfə də olsun tənqidlə təhqirin sərhədini keçməmişəm.**

**Çünki hər zaman özümü tənqid etdiyim insanın yerinə qoymuşam.**

**Əlimdə qələm, qəzet olmasından sui-istifadə etməmişəm!**

*Möhkəm əqidəm budur ki, öz şərəf və ləyaqətinə hörmət edən insan, başqasının şərəf və ləyaqətini təhqir etməz!*

*Xüsusən ictimai şəkildə!*

*Hamının eşitdiyi, gördüyü, oxuduğu bir şəraitdə!*

**Vaxt var idi insanlar adam arasında, ictimai yerdə onları təhqir edənləri duelə çağırar, məsələni silahla həll edər, qanla yuyardılar!**

**İndi əlçatmazlıq, qanundan qorxusuzluq bəzilərini “qəhrəmana” çevirib!**

**Elektron mediada, sosial şəbəkədə at oynadırlar, söyüşdən, təhqirdən zövq alırlar.**

*Susmaq razılıq əlaməti kimi də qiymətləndirilir!*

**Əgər həyasızdan, abırsızdan, tərbiyəsizdən qorxub susuruqsa, bu onlara daha da qol-qanad verir!**

Doğrudur, söz azadlığı belələri üçün cəzasızlıq mühiti yaradıb.

Artıq müvafiq qanunlarda dəyişiklik apararaq azad sözlə azğın sözü fərqləndirmək, azğınlaşmışları cəzalandırmaq vaxtıdır!

**Çünki heç zaman söz azadlığı şərəf və ləyaqətdən üstün tutula bilməz və tutulmamalıdır!**

Lakin o zamana qədər də seyrçi mövqedə durmamalıyıq!

*O da həqiqətdir ki, cəmiyyətdə tərbiyəli, ləyaqətli, ağzının danışığını bilən insanlar qat-qat çoxdur!*

*Lakin bu çoxluğun susması, baş alıb gedən söyüş və təhqir hallarına reaksiya verməməsi əks təsəvvür yaradır.*

*Sanki tərbiyəsizlər tərbiyəlilərdən çoxdur!*

Bu da qəbuledilməzdir!

**Axı biz Azərbaycanlıyıq!**

### MİLLİ MENTALİTETİMİZ VƏ SÖYÜŞ

Azərbaycan kişisi həmişə özünü abırlı, ləyaqətli aparmağa çalışır.

Kişi məclislərində, cavanların öz tay-tuşlarının əhatəsində şit zarafatlar, kobud ifadələr olur və haradasa başadüşüləndir. Çünki burada deyilənlər məhdud tərkibli dairəyə aiddir.

Bunu gizlətmirik!

Hətta iki nəfər nəyə görəsə dalaşanda bir-birilərinə şeir, lətifə söyləmirlər, hədələyirlər, söyüş söyürlər!

Amma bütün bunlar kişi camiəsində baş verir!

**Qadın olan yerdə heç bir Azərbaycan kişisi “pərdəsiz” lətifə danışmaz!**

**Onun söyüşünü ana-bacısı, qonşu qadını, lap yoldan keçən bir xanım eşidə bilərsə, ağzın açmaz, səbrini basar!**

**Əslində Azərbaycan xalqı söyüş söyməyi, uzaqdan durub kiməsə təhqiramiz ifadələr yağdırmağı qorxaqlıq, nakişilik kimi qiymətləndirib!**

**Zəiflər, qorxaqlar dilə gic verərlər - deyib müdriklər...**

*Haradasa xaricdə oturub internetdə kişilənmək, “xoruzlanmaq”, yaxud saxta bir profil açaraq özünə layiq bildiyi ifadələri başqalarının ünvanına səsləndirmək hünər deyil, qəhrəmanlıq deyil!*

*İkrah doğuran, nifrətə layiq əməldir!*

Axı təkcə başqalarının yox, sənin də anan, bacın, həyat yoldaşın internetə girir, saytlara baxır, dediklərinin onların da eşitməsini, oxumasını necə rəva bilirsən?

İnsanlar ona görə söyüşə, təhqirə dözməməlidirlər ki, söyülənlə birgə həmin söyüşü eşidənə də müəyyən pay düşür!

Bunu normal, şəxsiyyətli adamlar necə qəbul edərlər!

❖ ❖ ❖

Möhtərəm oxucu!

Bu mövzuda yazmaq da asan deyil!

Çünki millətimizə, xalqımıza yaraşmayan haldır!

Amma susmaq da olmaz!

*Qarabağ Zəfərindən sonra bütün dünya bizdən danışır, bizi qəhrəman, qürurlu xalq hesab edir!*

*Bizdən öyrənənlər, bizə oxşamağa çalışanlar da az deyil!*

**Gəlin bir ovuc bədnama, nakişiyə görə xalqımızın adına utanc gətirməyək!**

**Belələrini özümüz öz aramızdan çıxdaş edək!**

**Tənə, qınaq obyektinə çevirək!**

*Nə verilişinə baxaq, nə saytını oxuyaq!*

*Qoy öz söyüşlərini özləri deyib, özləri də eşitsinlər!*

**Bəxtiyar SADIQOV**

# Prezident işğaldan azad olunmuş ərazilərin bərpa və dirçəliş tarixini bəyan etdi

## **İlham ƏLİYEV:** “Biz 5 il ərzində bütün dünyanın qibtə edəcəyi yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur quracağıq”

Böyük və müqəddəs qələbəmizin birinci ildönümünə sayılı günlər qalır. Uzun sürən münaqişənin sonunda Azərbaycanın parlaq Qələbəsi region ölkələri arasında iqtisadi əməkdaşlığa zəmin yaratdı. Bu qələbə həm də erməni xalqına anlatdı ki, uzun illər onu əsarətdə saxlayan faşist ideologiyasından imtina etsin və Azərbaycan Prezidenti İlham Əliyevin sülh çağırışlarından, təklif olunan əməkdaşlıq formatlarından yararlanıb ağ günə çıxsın.

Təəssüf ki, postmüharibə dövründə də Ermənistanın fərqli mövqelərdən çıxış etməsinin sahidi oluruq. Sözdə Ermənistanın sülh proseslərinə qatılmaq niyyəti, N.Paşinyanın danışıqlara hazır olmasını bəyan etməsi bir tərəfdən maraq doğursa da, digər tərəfdən bu ölkədə işğalçılıq siyasətindən imtina edilməsinin heç də asan olmadığı sezilir. Özü də bu siyasət erməni siyasətçilərinin ikinci, üçüncü təbəqəsi tərəfindən yox, elə prezident Armen Sarkisyan tərəfindən aparılır. O, bu yaxınlarda Romada erməni diasporunun nümayəndələri ilə görüşərkən deyib: “Biz bu müharibədə itkilər verdik, amma xatırlamağa dəyər ki, 90-cı illərdə eyni düşmənlə vuruşmuşuq. Biz Azərbaycana qalib gəldik və çox güman ki, o zaman daha yaxşı hazırlaşmışdıq. Ancaq təəssüf ki, qələbəmiz sabit sülhə çevrilmədi”. Bu sözlər ordusu darmadağın edilən, daxili siyasi çəkişmələrdə ləngərləyən dövlətin prezidentinin reallıqlardan nə qədər uzaq olduğunu, işğalçılıq ambisiyalarından əl çəkmədiyini göstərir.

Ermənistandan fərqli olaraq Qələbə elan edilən gündən Azərbaycan quruculuq dövrünə qədəm qoyub. Prezident İlham Əliyev qətiyyətlə bütün Qafqazın aqibətini dəyişməyə qadir olan ideyalar təklif edir. Dövlət başçısı bir neçə gün əvvəl Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündəki çıxışında regionun sülhə qayıtmasının zəruriliyini qeyd edərək Azərbaycanın əməkdaşlığa hazır olduğunu bəyan etmişdir. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin baş tutan ikitərəfli görüşünün konstruktiv keçdiyini qeyd edən İlham Əliyev Ermənistanın baş naziri ilə görüşə hazır olduğunu bir daha diqqətə çatdırmışıdır: “Amma əsas odur ki, Azərbaycanla Ermənistan arasında barışıq olsun, yəni sülh müqaviləsi imzalansın. Biz bunu istəyirik. Sərhədlərin delimitasiyası həyata keçirilsin”.

Amma görün bu çağırışa erməni siyasi liderləri nə cavab verir? Ermənistan Prezidenti bildirib ki, “müharibənin aqibətini əsgərlərin cəsarəti və fədakarlığı deyil, silah və texnika həll edirdi və bu məsələlərdə erməni tərəfi geri qalırdı... Məsul şəxslər müharibəni və Ermənistanın məğlubiyyətini təhlil etməlidirlər”. Maraqlı bir sual doğur: 10 min fərarisinin olduğunu, əsgərlərinin kütləvi surətdə döyüş mövqelərini atıb qaçdığını görməyən prezident anlamırmı ki, artıq Rusiya, Fransa, ABŞ erməni diasporunun nazı və kaprizləri ilə oynamaqdan bezib. Səlahiyyətsiz prezident dünyanın məşhur ekspert və hərbi analitiklərinin bu müharibəni xırda təfərrüatlarına qədər analiz edib süzgəcdən keçirdiyini bilmirmi? Sözsüz ki, bilməmiş deyil. Sadəcə, məğlubiyyətlərinin əsas səbəbini - işğalçılıq siyasətinin qurbanı olduqlarını etiraf etmək istəmir.

Azərbaycan isə bu gün misilsiz bir sürətlə bərpa işlərini davam etdirir. Ermənilərin dağıtdıqları 30 su elektirk stansiyasının 10-i gələn il, qalanları isə ondan sonrakı illərdə bərpa ediləcək. Hətta artıq bir neçə stansiya işə başlayıb. Eyni zamanda yeni yollar çəkilir, “ağıllı” kənd və şəhərlərin, “ağıllı” aqrar təsərrüfatların əsası qoyulur və bu zaman yüksək texnologiyalar tətbiq olunur.

Prezident İlham Əliyev qeyd edir ki, müharibə başa çatandan sonra yaranan yeni reallıqları bəziləri həzm edə bilmirlər: “Baxın, Azərbaycana qarşı yenə də təxribat və uydurma kampaniyasının yeni dalğası artıq başlamışdır. Bu, davam edəcək, biz buna hazır olmalı idik və hazır idik. Heç bir şey, hansısa məsələ Qarabağdan, torpaqlarımızın azad edilməsindən üstün ola bilməz, heç bir məsələ bunu üstələyə bilməz. Bu gün biz artıq bu reallıqları qəbul etdirdik, kiminsə xoşuna gəlir, gəlmir, amma qəbul etdirdik”. Ardınca isə Azərbaycan Prezidenti daha böyük qətiyyətlə, dəmir iradə ilə işğaldan azad olunmuş ərazilərin bərpa və dirçəliş tarixini açıqlayır: “Əminəm ki, təqribən 5 il ərzində elə bir yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək. Bunu biz, ilk növbədə, insanlar üçün edirik. Əziyyət çəkmiş, çadırda, vaqonun altında, yataqxanada, uşaq bağçasında dözülməz şəraitdə yaşamış o insanlar ən yaxşı şəraitdə yaşamalıdırlar və yaşayacaqlar. Bunu biz təmin edəcəyik”.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***









# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

# Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur

## "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu"nun birgə servis mərkəzi işğaldan azad olunmuş ərazilərimizin dirçəlişinə töhfə verəcək

**Bir neçə gündən sonra Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümü tamam olacaq. 30 il bir dövlətin tarixi baxımından uzun zaman kəsiyi sayıla bilməz. Amma bizim üçün olduqca qürurvericidir ki, müstəqilliyimizin tamamlanmaqda olan 30 illik dövrü mühüm tarixi hadisələrlə əlamətdardır. Müstəqilliyimizin ilk illərindəki problemlərdən Ulu Öndər Heydər Əliyevin müdrikliyi sayəsində xilas olan Azərbaycan bu gün regionun lideri, qlobal miqyasda isə söz və yüksək nüfuz sahibi olan dövlətdir.**





### Prezident İlham Əliyevin liderliyi ilə yazılan şərəfli tarix

1991-ci ildən 1993-cü ilin iyununa qədərki mərhələdə respublikada mövcud olmuş fəlakət və sarsıntılar, ağır sosial-iqtisadi böhran, hərc-mərclik, anarxiya təsdiqləyir ki, müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha çətindir. Mürəkkəb bir şəraitdə xalqın səsinə səs verərək hakimiyyətə qayıdan Heydər Əliyev respublikamızı müstəqilliyin itirilməsi təhlükəsindən qurtardı. Ulu Öndər müstəqil dövlətçiliyimizin möhkəm bünövrəsini yaratdı və çağdaş tariximizə dövlətçiliyin xilaskarı, qurucusu kimi daxil oldu. Heydər Əliyevlə başlanan yeni siyasi xətt hər bir sahədə dövlətimizin yüksəlişini təmin etdi, siyasi, iqtisadi, sosial və digər sahələrdə uğurların əldə olunmasını şərtləndirdi.

Bu gün cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hər bir uğuru Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi milli tərəqqi ideyalarının təzahürüdür. Bir neçə gündən sonra - oktyabrın 15-də möhtərəm İlham Əliyevin ilk dəfə Azərbaycan Prezidenti seçilməsinin və bütövlükdə ölkəmizə rəhbərliyinin 18-ci ili tamam olacaq. Ötən 18 ildə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqillik tarixinin ən möhtəşəm nailiyyətləri əldə olunub. Dövlət başçısının müdrik siyasəti nəticəsində Azərbaycan bu dövrdə dinamik iqtisadi inkişaf tempi nümayiş etdirib. İlham Əliyev Azərbaycanı Cənubi Qafqazın ən güclü dövlətinə çevirib, kosmik klubun üzvü edib, qlobal miqyasda mövqelərini möhkəmləndirib. 2012-2013-cü ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olan Azərbaycan indi Qoşulmama Hərəkatı kimi dünyanın ikinci ən böyük beynəlxalq təşkilatına sədrlik edir. Bütün bunlar həm də müasir müstəqillik tariximizin möhtəşəm uğurlarıdır.

Ötən 18 ildə Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarını layiqincə təmin edib. Xüsusən artıq keçmişdə qalmış Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarda möhtərəm Prezidentimiz beynəlxalq təzyiqlərə qətiyyətlə sinə gərib. Prezident İlham Əliyev hər zaman bəyan edirdi ki, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək. Bu baxımdan ötən ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi müasir müstəqillik tariximizin ən böyük, ən əlamətdar hadisəsi oldu. Ali Baş Komandan İlham Əliyevin müəllifliyi, ordumuzun rəşadəti, hərbçilərimizin qəhrəmanlığı hesabına qazanılan bu zəfər müstəqillik tariximizi daha da şərəfləndirdi, xalqımıza tarixi fəxarət hissi bəxş etdi. Bu Qələbə bir daha təsdiq etdi ki, İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan yalnız 30 illik müstəqilliyinin deyil, bütün tarixinin ən qüdrətli dövrünü yaşayır.

İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən sonra dövlətimizin, xalqımızın, müstəqilliyimizin yeni qəhrəmanlıq salnaməsi yazıldı. Prezident İlham Əliyevin liderliyi, Ali Baş Komandanlığı və ordumuzun qəhrəmanlığı ilə yazılan bu tarix hər birimizi qürurlandırdı, şərəfləndirdi. Bir daha Prezidentimizlə, ordumuzla, dövlətimizlə fəxr etdik.

### Bərpa və yenidənqurma işlərinin miqyası çox əhatəlidir

Ermənilərin 30 ilə yaxın işğal dövründə dağıtdıqları, vandallıq və talan etdikləri torpaqlarımıza dövlətimiz indi yeni həyat bəxş edir. 44 günlük Vətən müharibəsinin başa çatmasından cəmi 11 ay ötməsinə baxmayaraq, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işlərinin miqyası olduqca masştablıdır. Hazırda azad olunmuş bütün ərazilərimizdə kompleks şəkildə yeni infrastruktur yaradılır. Avtomobil və dəmir yolları çəkilir, hava limanları inşa olunur. Qarabağ və Şərqi Zəngəzurun elektrik enerjisi ilə etibarlı təminatı üçün demək olar ki, bütün rayonlarda yarımstansiyalar inşa olunur. Müharibənin başa çatmasından cəmi 11 ay ötməsinə baxmayaraq, bir neçə su elektrik stansiyasının və yarımstansiyanın, Suqovuşan və Talış kəndlərinə çəkilən avtomobil yollarının, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi və "Zəfər yolu"nda son tamamlanma işlərinin aparılması, Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərin bərpasına göstərdiyi yüksək diqqətin təcəssümüdür.

İşğaldan azad edilmiş şəhər və rayonlarımızın bərpası və yenidənqurulması istiqamətində işlər sürətlə gedir. Şuşanın bərpası istiqamətində qısa müddətdə mühüm işlər görülüb və Qarabağın tacı tarixi şöhrətini özünə qaytarır. Digər rayonların bərpası ilə bağlı müxtəlif layihələr icra olunmaqdadır. Oktyabrın 4-də Prezident İlham Əliyevin iştirakı ilə Cəbrayıl şəhərinin bərpasının, həmçinin burada yaşayış kompleksinin, məktəb və xəstəxana binalarının təməlinin qoyulması bunu təsdiq edir.

Qarabağ və Şərqi Zəngəzurun böyük iqtisadi potensialı var. İşğaldan azad olunmuş rayonlarımızın istər sənaye, istər kənd təsərrüfatı potensialı çox genişdir. Bu torpaqlar həm bərəkətli, həm də yeraltı və yerüstü sərvətlərlə zəngindir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzurun iqtisadi resurslarının hərəkətə gətirilməsi, o cümlədən azad olunmuş torpaqlarımızın kənd təsərrüfatına cəlb edilməsi bütövlükdə respublikamızın iqtisadi inkişafına və iqtisadiyyatımızın diversifikasiyasına, xüsusən qeyri-neft sektorunun genişlənməsinə böyük töhfələr verəcək. Prezident İlham Əliyevin fərmanına əsasən, Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması da düşmən tapdağından xilas olunan torpaqlarımızın iqtisadi potensialının hərəkətə gətirilməsinə təkan verəcək. Bu layihənin həyata keçirilməsi bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına, yerli istehsalın inkişafına səbəb olacaq, məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq.

### Azərbaycan-Rusiya tərəfdaşlığının təcəssümü

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi torpaqlarımızın işğaldan azad edilməsi kənd təsərrüfatı texnikasına, eləcə də digər texnikalara və texniki xidmətlərə tələbatı artırıb. Bu baxımdan Qarabağ bölgəsində yük avtomobilləri və kənd təsərrüfatı texnikaları üçün "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlinin qoyulması xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl rayonuna səfəri zamanı təməli qoyulan regional servis mərkəzinin ümumi ərazisi 1,5 hektar olacaq. Ərazidə satış zalı, maliyyə xidmətləri şöbəsi, xidmət bürosu, menecer şöbələri, təmir zonası, ustaların ofisləri və ehtiyat hissələri anbarının yerləşəcəyi inzibati bina, yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət üçün qulluq blokları, təmir sexləri, avtoyuma və dayanacaq fəaliyyət göstərəcək. Mərkəzdə "KamAZ" ilə yanaşı, digər yük avtomobillərinə, eləcə də kənd təsərrüfatı texnikalarına, o cümlədən traktor və kombaynlara texniki servis xidməti göstəriləcək. Burada 36 yeni iş yerinin açılması nəzərdə tutulur.

Son illərdə Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətləri digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də uğurla inkişaf edir. Azərbaycanın Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Tatarıstan Respublikası ilə səmərəli qarşılıqlı əməkdaşlıq münasibətləri var. Yük maşınlarının istehsalı üzrə dünyanın aparıcı şirkətlərindən olan "KamAZ"ın Cəbrayılda "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə birgə servis mərkəzinin yaradılması bunun bariz göstəricisidir. Layihə bu ilin iyul ayında Rusiya şirkətlərinin nümayəndələrinin Azərbaycana işgüzar missiyası çərçivəsində "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə "KamAZ" ASC arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq "KamAZ" avtomobil zavodu ilə birlikdə həyata keçiriləcək.

Xatırladaq ki, "KamAZ" ASC-nin "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə birgə layihəsinə 2014-cü ildə start verilib. Azərbaycanda "KamAZ"ın ilk partiyası 2015-ci ildən istehsala buraxılıb. Hazırda Gəncədə 8 model "KamAZ" buraxılır və indiyədək 1000-dən çox maşın istehsal olunub. Əməkdaşlığın inkişafı ilə bağlı perspektivdə planlar var. Belə ki, Rusiya bankının maliyyəsinin cəlb edilməsi ilə gələcəkdə lizinq şirkətinin, ehtiyat hissələri üzrə regional anbarların yaradılması, mövcud xidmət mərkəzlərinin müasirləşdirilməsi nəzərdə tutulur. Bundan başqa, Cəlilabad, İsmayıllı və İmişlidəki servis mərkəzləri modernləşdiriləcək.

Birgə servis mərkəzinin təməlinin qoyulması mərasimində Rusiya Federasiyası Tatarıstan Respublikasının Baş nazirinin müavini, sənaye və ticarət naziri Albert Kərimov və "KamAZ" ASC-nin baş direktorunun müavini Rüstəm Şamsutdinov da iştirak edirdilər. Onların Cəbrayıla gəlişi həm də Füzuli Beynəlxalq Hava Limanında ilk xarici nümayəndə heyətinin qarşılanması kimi yadda qaldı.

Dövlətimiz və xalqımız özünün tarixi günlərini yaşayır. Sözsüz ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı qarşıya qoyulan vəzifələrin hər biri vaxtında icra olunacaq. O cümlədən azad olunmuş bütün ərazilərimizin iqtisadiyyatı bərpa ediləcək. "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzi də bu istiqamətdə öz töhfələrini verəcək.

***Xanlar FƏTİYEV,***
***Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin Müşahidə Şurasının sədri***

# 13 oktyabr ZƏFƏR gündəliyi 2020-ci il

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən qruplaşma və yerdəyişmə apararaq cəbhənin bəzi istiqamətlərində kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərir.

Oktyabrın 12-dən 13-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində ümumi vəziyyət gərgin olaraq qalır.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Tor-M2KM" ZRK, 1 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilir və sıradan çıxarılır.

❖ ❖ ❖



Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilir.

1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi isə pusquya salınır, hərəkətdə olan avtomobil texnikası sıradan çıxarılır.

❖ ❖ ❖

Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərimizə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv edilir.

Döyüş əməliyyatları zamanı tanınmış erməni terrorçu, "Körpə" ləqəbli Mqer Arutyunyan da zərərsizləşdirilir.

Müqaviməti qırılan düşmən bölmələrində kütləvi fərarilik halları müşahidə olunur.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

❖ ❖ ❖



Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından etibarən Tərtər və Ağcabədi rayonlarının ərazisini yenidən atəşə tutur.

Sentyabrın 27-dən bəri Tərtər şəhərində, rayonun qəsəbə və kəndlərində sakinlərə məxsus 100-dən çox ev dağılıb, 500-dək evə, 51 çoxmənzilli yaşayış binasına, 60 yardımçı tikiliyə, 18 sosial, 7 istehsal, 27 ticarət obyektinə, 14 inzibati binaya ziyan dəyib. Mülki şəxslər arasında ölən və yaralananlar var.

Ağcabədi rayonunun yaşayış məntəqələrində isə 11 ev tamamilə dağılıb, 150-ə yaxın evə, 1 uşaq bağçasına, 1 məscidə və 1 kitabxanaya ziyan dəyib.

❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına verdiyi müsahibəsində Ermənistanın humanitar atəşkəs rejimini pozmasının səbəblərini açıqlayır.



Prezident deyir ki, onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək Ermənistanın terrorçu rəhbərliyi üçün adi bir haldır. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görüb: "Ermənistanın bu xain hücumunun səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirlər. Məhz buna görə Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və bizi cavab atəşinə təhrik edirlər".

Gəncəyə, Tərtərə raket zərbələrinin endirilməsini Ermənistanın növbəti terror aktı adlandıran Prezident əminliklə vurğulayır ki, bu terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz. Azərbycan düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşaraq öz torpaqlarını azad edəcək və bayrağını işğal edilmiş bütün ərazilərdə qaldıracaq.

Bu xain hücumlar zərrə qədər də bizi yolumuzdan döndərə bilməz. Ermənistanın məqsədi Azərbycanı dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr Azərbaycanı dayandıracaq: "Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik".

❖ ❖ ❖




Müdafiə Nazirliyi işğaldan azad edilən Hadrut qəsəbəsinin videogörüntülərini yayır.

Qəsəbədəki ən yüksək zirvədə bayrağımız dalğalanır.

Xatırladaq ki, Xocavəndin Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad olundu. Hadrutun azad edilməsi Vətən müharibəsində dönüş nöqtəsi idi. Hadrut çox strateji əhəmiyyətə malik, həm də ordumuzun növbəti əməliyyatları yerinə yetirməsi üçün əsas açar yerlərdən biriydi. Azərbaycan Ordusu hərb tarixinin ən çətin əməliyyatlarından birini - sızma və dərinlikdə əməliyyatlarını icra edərək Hadrutu işğaldan azad etdi. Bu, Füzuli rayonunda yerləşən düşmən qüvvələrinin, onlara gələn təchizat və digər əlaqə yollarının kəsilməsində və mühüm strateji nöqtələrin ələ keçirilməsində önəmli rol oynadı. Hadrut azad ediləndən sonra demək olar ki, Ermənistan ordusunda çox sürətli şəkildə pərakəndəlik və fərarilik başladı, döyüş ruhu sındı. Separatçı rejimin başçısı Araik Harutyunyan kiçik qüvvələr yığaraq Hadrutun yenidən zəbt olunması üçün hücumlar təşkil edirdi. Ancaq onlar heç bir effekt vermədi. Azərbaycan Ordusu öz qalibiyyətli yürüşünü davam etdirdi və düşməni digər rayon, şəhər və yaşayış məntəqələrimizdən də qovub çıxardı.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Qarabağa işıq gəlir

## İşğaldan azad edilmiş ərazilərdə daha 3 enerji obyekti fəaliyyətə başlayıb

*Əvvəli 1-ci səh.*

Tərtər rayonunda yenidən qurulan "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları açıldı. "Suqovuşan-1" Kiçik Su Elektrik Stansiyası ildə 13,8 milyon kilovat/saat elektrik enerjisi istehsal edəcək. "Suqovuşan-2" stansiyasında isə ildə 8,7 milyon kilovat/saat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub.

Suqovuşan qəsəbəsindəki bu iki kiçik su elektrik stansiyasının ümumi gücü 7,8 meqavatdır. Xatırladaq ki, erməni vandalları 4,8 meqavat gücündə "Suqovuşan-1" və 3 meqavat gücündə "Suqovuşan-2" stansiyalarının yararlı ehtiyat hissələrini söküb daşımış, apara bilmədiklərini isə yerləyeksan etmişlər. Döyüşlər zamanı elektrik stansiyalarına ciddi ziyan dəymiş və nəticədə onlar tamamilə yararsız vəziyyətə düşmüşdülər.

Hazırda hər iki stansiya əsaslı şəkildə yenidən qurulub. Eləcə də onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənib.

"Suqovuşan-1" və "Suqovuşan-2" stansiyaları işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbələrinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi paylayıcı şəbəkənin yeni çəkilən xətlərilə digər istiqamətlərə də ötürüləcək.

Cəbrayıl rayonuna səfəri çərçivəsində isə Prezident İlham Əliyev 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyanın açılışını etmişdir. Cəbrayıl ictimaiyyəti ilə görüşdə çıxış edərkən dövlət başçısı demişdir: "Biz Cəbrayıl rayonunun elektrik təchizatının artıq demək olar ki, bütün işlərini gördük. Bu gün Cəbrayıl yarımstansiyası istifadəyə verildi. Laçın və Kəlbəcər rayonlarında hazırda su elektrik stansiyalarının bərpası işləri gedir. Artıq bir neçə stansiya işə başlayıb, o cümlədən Tərtər rayonunda Suqovuşan Su Elektrik stansiyaları. Mən tapşırıq vermişəm, ermənilər tərəfindən - onlar qaçaqaç dövründə, Kəlbəcəri, Laçını tərk edən dövrdə - dağıdılmış stansiyaların 10-nu biz gələn il, qalan 20-dən çoxunu isə ondan sonrakı illərdə bərpa edəcəyik. Yəni Cəbrayıl rayonunun elektrik təchizatı artıq var. Bu, əsasdır. Çünki bu olmasa, heç nə etmək mümkün olmayacaq".

Vətən müharibəsində işğaldan azad edilən Cəbrayıl rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından uzunluğu 31 kilometr olan 110 kilovoltluq ikidövrəli 1-ci və 2-ci "Cəbrayıl" hava xətləri çəkilib. Bir vaxtlar qoşunların təmas xətti olduğundan tamamilə minalanmış yerlərdən keçən xəttin uzandığı ərazi partlamamış sursatlardan artıq təmizlənib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yeni yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı qurğu tikilib. 110/35/10 kilovoltluq "Qubadlı" və "Zəngilan" yarımstansiyalarının qidalandırılması məqsədilə Cəbrayıldan çəkilən ikidövrəli ötürmə xətlərinin qoşulması üçün yarımstansiyada lazımi texniki şərait yaradılıb. "Cəbrayıl" yarımstansiyası yeni avadanlıqlarla komplektləşdirilib. Belə ki, burada müasir rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri quraşdırılıb. Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-Scada dispetçer idarəetmə sistemi qurulub və enerjisistemin mərkəzi SCADA sisteminə inteqrasiya olunaraq rəqəmsallaşdırılıb.

"Cəbrayıl" yarımstansiyası Cəbrayıl rayonunda yerləşən hərbi obyektləri, yeni yaradılan sosial-iqtisadi infrastrukturu elektrik enerjisi ilə təmin edəcək. Bununla yanaşı, yarımstansiya rayonun ümumi şəhərsalma konsepsiyasına əsasən, Cəbrayıl şəhərini və bütövlükdə rayonun bütün yaşayış məntəqələrini işıqlandıracaq.

Bütün bu tədbirlər işğaldan azad olunmuş ərazilərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi istiqamətində görülən işlərin uğurla davam etdiyini təsdiqləyir. Xatırladaq ki, bir neçə ay əvvəl 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyası istifadəyə verilmişdir. Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya fasiləsiz, növbəlilik prinsipi ilə iki ay yarımdan da az bir müddətdə 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi icra olunmuşdur. Bu, yalnız Azərbaycan energetikasında deyil, bütün regionun energetika tarixində bir rekord idi.

İşğaldan azad olunmuş bölgələrimizdə hazırda yeni elektrik stansiya və yarımstansiyaları tikilməkdədir. Onlar növbəti illərdə istifadəyə verilərək doğma Qarabağımızı daha gur işıqlandıracaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın müdafiə naziri NATO-nun nümayəndəsi ilə görüşüb

Oktyabrın 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov NATO Müttəfiq Qüvvələrinin Əməliyyat Komandanlığının Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Bülent Turan ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki general-polkovnik Zakir Həsənov qonağı salamlayaraq Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən sonra azad edilən ərazilərdə görülən işlər, həmçinin Ermənistan-Azərbaycan dövlət sərhədində hazırkı vəziyyətlə bağlı ətraflı məlumat verib.

Nazir NATO ilə əməkdaşlığın cari vəziyyətindən və bu sahədə əldə edilmiş müsbət nəticələrdən məmnunluğunu bildirərək qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Kontr-admiral Bülent Turan Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfəyə görə minnətdarlığını bildirib, mövcud hərbi əməkdaşlığın daha da genişləndirilməsinin tərəfdarı olduğunu vurğulayıb.

Görüşdə NATO ilə tərəfdaşlıq çərçivəsində keçirilən birgə tədbirlərə dair fikir mübadiləsi aparılıb.

# Milli Məclisin deputatı QDİƏT PM-in komitə iclasının məruzəçisi təyin olunub

Oktyabrın 12-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin onlayn formatda 57-ci iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirə QDİƏT PM-də Azərbaycan nümayəndə heyətinin üzvləri Musa Quliyev və Ramin Məmmədov qatılıblar.

Onlayn iclası açan QDİƏT PM-in Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin sədr müavini Nikolay Skorik (Ukrayna) gündəliyi təqdim edib. Gündəliyin qəbulundan sonra parlamentarilər komitənin 56-cı iclasının protokolunu təsdiqləyiblər.

Sonra Xarula Kefalidu (Yunanıstan) "Pandemiyadan sonra Qara dəniz regionunda təhsil sahəsində əməkdaşlığın məqsəd və vəzifələri" mövzusunda komitənin məruzəsini təqdim edib. Məruzəçi COVID-19 pandemiyası şəraitində dünya ölkələrinin, o cümlədən Qara dəniz regionu dövlətlərinin təhsil sistemində yaranmış vəziyyətdən bəhs edib. Məruzəçi hökumətlərin yeni şəraitə çevik cavab vermələrini qeyd edərək təhsildə yeni texnologiyaların tətbiqinin, distant və hibrid təhsil formalarının təkmilləşdirilməsinin, təhsilin fasiləsizliyinin təmin olunmasının və digər qabaqcıl təcrübələrin davam etdirilməsinin vacibliyindən danışıb.

Sonra milli nümayəndə heyətlərinin təmsilçiləri də öz ölkələrinin təhsil sisteminin pandemiya şərtlərinə uyğunlaşma prosesi barədə danışıblar.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qlobal pandemiya dövründə Azərbaycanda teledərslərə start verilməsi, Virtual Məktəb platformasının tətbiqi kimi təhsil sahəsində həyata keçirilən tədbirlərdən danışıb. Bildirilib ki, ölkədə bütün təhsil pillələrində distant təhsil təcrübəsinin daha geniş tətbiqinin, texnoloji təchizat və keyfiyyətli internet bağlantısının təmininin, texnoloji vərdişlərin aşılanmasının inkişafı kimi tədbirlərlə təhsilin fasiləsizliyi, əhatəliliyi təmin olunub.

Müzakirələrdən sonra parlamentarilər həm məruzəni, həm də məruzə üzrə komitənin tövsiyələrini təsdiqləyiblər. İclasda həmçinin Azərbaycan nümayəndə heyətinin üzvü Musa Quliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin yeni sədri seçilib.

Sonda komitənin növbəti - 58-ci iclasının tarixi, yeri və gündəliyi açıqlanıb. "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrində qaçqın axınları nəticəsində yaranan böhranların sosial təsirləri" növbəti iclasın əsas mövzusu kimi müəyyənləşdirilib. Mövzu üzrə məruzəçi Milli Məclisin deputatı Ramin Məmmədov təsdiq edilib.

Onlayn iclasın yekununda QDİƏT PM-in Baş katibi Asəf Hacıyev təşkilatın qarşıdakı tədbirləri ilə bağlı bəzi məsələləri komitə üzvlərinin diqqətinə çatdırıb, indiyədək komitəyə sədrlik edən Mətin Gündoğduya (Türkiyə) məhsuldar fəaliyyətinə görə təşəkkürünü bildirib, yeni seçilən komitə sədrinə uğurlar arzulayıb.

# Azərbaycan və Türkiyə arasında ətraf mühitlə bağlı İş Proqramı imzalanıb



Azərbaycanda işgüzar səfərdə olan Türkiyə Respublikasının ətraf mühit və şəhərsalma naziri Murat Kurumun rəhbərlik etdiyi nümayəndə heyəti Ekologiya və Təbii Sərvətlər Nazirliyində qurumun rəsmiləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ətraf mühitin qorunması, iqlim dəyişmələrinə təsirlərin azaldılması, tullantıların, o cümlədən plastik tullantıların düzgün idarə edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub.

Daha əvvəl ətraf mühitin mühafizəsi sahəsində Azərbaycanla anlaşma memorandumu imzaladıqlarına işarə edən Murat Kurum deyib: "Sənaye, məişət tullantılarının, kanalizasiya və yağış sularının idarə olunması, sutəmizləyici qurğular kimi mövzularda əməkdaşlıq edirik. Bilməyinizi istərdik ki, nazirliyimizlə əlaqəli hər bir məsələdə azərbaycanlı qardaşlarımızın yanındayıq. Bu, istər iqlim, istərsə də şəhərsalma ilə bağlı ola bilər. Bütün heyətimizlə, təşkilatlarmızla Azərbaycanla hər cür əməkdaşlığa hazır olduğumuzu bir daha diqqətə çatdırmaq istəyirəm".

Qarabağda ciddi dağıntıların olduğunu vurğulayan nazir "Azərbaycan güclü bir dövlət kimi lazım olan hər şeyi edəcək. Biz də nazirlik olaraq əməkdaşlığımızı ən yüksək səviyyədə davam etdirəcəyik" deyib.

Azərbaycanın 44 günlük müharibədə möhtəşəm Zəfər qazandığını və 30 ilə yaxın işğal altında olan torpaqları azad etdiyini qeyd edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev erməni vandallarının həmin ərazilərdə törətdiyi vəhşiliklərdən, biomüxtəlifliyə, torpağa, çaylara, meşələrə vurulan zərərlərdən bəhs edib. Nazir bildirib ki, hazırda həmin ərazilərdə geniş yenidənqurma və abadlaşdırma işləri aparılır: "İşğaldan azad edilmiş ərazilərin ətraf mühitinin bərpası sahəsində Türkiyənin müvafiq qurumu ilə birlikdə çalışmaq və qardaş ölkənin təcrübəsindən yararlanmaq istəyirik".

Muxtar Babayev ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyinin zərərlərinin azaldılması sahələrində də Türkiyə ilə əməkdaşlığı sürətləndirəcəklərini bildirib: "İqlim dəyişikliyi mövzusunda da Türkiyə ilə əməkdaşlığı daha da inkişaf etdirmək niyyətindəyik. Yeni radar sistemləri quraşdırmaq üçün çalışırıq. Bu, tək bir ölkənin işi deyil. Bu mövzuda qonşu ölkələr olan Gürcüstan və Türkiyə ilə də əməkdaşlıq etməliyik. İqlim dəyişikliyi ilə mübarizədə ən böyük vasitəmiz bunu əvvəlcədən bilməkdir. Dəyişiklikləri öncədən bilmək, zərərlərin qarşısını almaq və azaltmaq üçün Türkiyə ilə əməkdaşlığa hazırıq".

Görüş zamanı həmçinin "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Saziş"in tətbiqi üzrə İkiillik (2022-2023-cü illər) İş Proqramı imzalanıb.

# Nur-Sultanda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üzv dövlətlərinin XİN rəhbərlərinin VI görüşü keçirilir

Qazaxıstanın paytaxtı Nur-Sultanda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) üzv dövlətlərinin xarici işlər nazirlərinin VI görüşü keçirilir.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev də iştirak edir.

Xarici işlər nazirlərinin Nur-Sultandakı (hibrid formatda) görüşünün gündəliyində forumun fəaliyyətinin əsas seqmentlərində etimad tədbirlərinin gücləndirilməsi kontekstində inkişaf perspektivləri müzakirə olunacaq.

Görüşün sonunda siyasi bəyannamənin qəbul edilməsi gözlənilir.

Qeyd edək ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin yaradılmasına dair təşəbbüsü Qazaxıstanın Birinci Prezidenti - elbası Nursultan Nazarbayev irəli sürüb. Hazırda təşkilatın Azərbaycan da daxil olmaqla 27 daimi və 8 müşahidəçi üzvü var.

Müşavirədə iştirak edən ölkələrin dövlət və hökumət başçılarının görüşləri dörd ildə ən azı bir dəfə keçirilir.

# UNESCO-nun İcraiyyə Şurasında Azərbaycanın milli bəyanatı təqdim edilib

Azərbaycan öz ərazilərini 30 illik Ermənistan işğalından azad etdi və 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya Federasiyası və Ermənistan rəhbərləri tərəfindən üçtərəfli Bəyannamənin imzalanması ilə Ermənistan və Azərbaycan arasında silahlı qarşıdurma sona çatdı.



Ermənistan işğal etdiyi ərazilərdə, eləcə də Ermənistanda Azərbaycanın mədəni irsini məhv etmək, qarət etmək və mənimsəmək üçün sistemli siyasət yürüdüb. Ermənistan abidələri dağıtmaq, memarlıq xüsusiyyətlərini dəyişmək və "arxeoloji" qazıntılar aparmaqla Azərbaycan mənşəli olduğunu bildirən bütün əlamətləri ortadan qaldırmaq kimi hədəflərə çatmaq məqsədi güdüb.

AZƏRTAC xəbər verir ki, bu fikirlər UNESCO-dakı daimi nümayəndəmiz, səfir Elman Abdullayevin qurumun İcraiyyə Şurasının 212-ci sessiyasında səsləndirdiyi milli bəyanatda yer alıb.

Bildirilib ki, bu kimi fəaliyyəti ilə Ermənistan UNESCO-nun sənədləri də daxil olmaqla, "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasının və onun iki protokolunun, habelə "Mədəni mülkiyyətin qanunsuz idxalı, ixracı və onun üzərində sahiblik hüququnun ötürülməsinin qadağan edilməsi vasitələri haqqında" Konvensiyanı, beynəlxalq humanitar hüququ kobud şəkildə pozub.

"Münaqişənin həlli Ermənistanla Azərbaycan arasındakı münasibətlərin normallaşması ilə regional əməkdaşlıq, inkişaf və firavanlıq üçün yeni perspektivlər açıb. İndi sülhün qorunması, reabilitasiya və yenidənqurma işləri, məcburi köçkünlərin geri qaytarılması mütləq prioritet olmalıdır. Bunu nəzərə alaraq Azərbaycan hökuməti münaqişədən sonrakı reabilitasiya, yenidənqurma və reinteqrasiyanın yeni mərhələsinə qədəm qoyub. Hökumət artıq onilliklərdir davam edən ərazilərin işğalının nəticələrini aradan qaldırmaq, o cümlədən tarixi, mədəni və dini irs abidələrimizin bərpası məqsədilə praktiki addımlar atmağa başlayıb", - deyə E.Abdullayev vurğulayıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan azad edilmiş ərazilərdəki bütün mədəni və dini abidələrin mənşəyindən asılı olmayaraq ən yüksək səviyyədə, lazımi qaydada saxlanılacağına, bərpa ediləcəyinə qərar verib. Azərbaycanın mədəni paytaxtı Şuşa da daxil olmaqla, azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işləri çərçivəsində dini məkanlar, tarixi abidələr, məqbərələr, ev-muzeyləri bərpa olunur. Bu bərpa və yenidənqurma işləri beynəlxalq mütəxəssislərin iştirakı ilə Şuşa şəhərinin tarixi simasını bərpa etmək üçün orijinal memarlıq üslubuna uyğun olaraq aparılır.

Daimi nümayəndə əlavə edib ki, münaqişə bitdikdən sonra mədəni irsə çıxış bərpa olunub. Bu da Azərbaycanın mədəni irsinə vurulan ziyanı qiymətləndirməyə imkan yaradıb. Bu amil UNESCO-nun fəal rolunu tələb edir.

"Bununla əlaqədar olaraq məlumat vermək istəyirəm ki, bu gün Azərbaycan Respublikasının münaqişədən zərər çəkmiş ərazilərinə müstəqil UNESCO texniki missiyasının göndərilməsi ilə bağlı danışıqlar davam edir. Əslində, Azərbaycan hökuməti belə bir missiyanın göndərilməsinin zəruriliyini istədi və son 30 illik işğal dövründə çoxsaylı platformalarda bunu UNESCO-nun diqqətinə çatdırdı. Lakin bu missiyaya hər dəfə Ermənistan tərəfindən maneə yaradılması və qarşısının alınması 2005-ci ilin hesabatında aydın göstərilib. Azərbaycan UNESCO ilə əməkdaşlığa böyük əhəmiyyət verir və konstruktiv dialoqa hər zaman açıqdır. İnanırıq ki, çoxdan gözlənilən bu missiyanın dərhal həyata keçirilməsi işğal zamanı zədələnmiş, talan edilmiş və ya dəyişdirilmiş mədəni irsin bərpasına və yenidən qurulmasına mühüm töhfə olacaq", - deyə E.Abdullayev qeyd edib.

Vurğulanıb ki, bu ərazilərdə həyat yenidən canlandıqca, 30 ildən sonra ilk dəfə olaraq Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın simvolu Cıdır düzündə ikigünlük musiqi bayramı, "Azərbaycan musiqisində multikulturalizm" devizi altında ölkədə yaşayan müxtəlif etnik azlıqların musiqi yaradıcılığını əks etdirən mədəni tədbir keçirildi. Tədbir çərçivəsində Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Müslüm Maqomayev, Bülbül və Xan Şuşinski daxil olmaqla, Azərbaycanın görkəmli bəstəkar və müğənnilərinin şah əsərləri səsləndirilib. Müsəlman dünyasında ilk operanın müəllifi dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyliyə həsr olunmuş 18 Sentyabr - Milli Musiqi Günü bu il ilk dəfə Şuşada qeyd edilib. Doğulduğu Şuşa şəhərində Üzeyir Hacıbəylinin abidəsinin açılışı olub.

Daimi nümayəndə deyib ki, 2021-ci ildə böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyi qeyd edilir. Prezidentin sərəncamı ilə 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi ili" elan olunub. Azərbaycanın təşəbbüsü ilə sentyabrın 24-də UNESCO-nun görkəmli nümayəndələrinin fəal iştirak etdiyi "Nizami fəlsəfəsi prizmasından bərabər təhsil və gender bərabərliyi" adlı veb-seminar təşkil edilib.

Oktyabrın 4-də Azərbaycan hökuməti və UNESCO-nun təşkilatın mənzil-qərargahında Nizami Gəncəviyə həsr olunmuş mədəni tədbir keçirdiyini qeyd edən E.Abdullayev tədbirə dəyərli dəstəyinə görə Baş direktora və üzv dövlətlərə dərin təşəkkürünü bildirərək deyib: "Azərbaycanın UNESCO-dakı fəaliyyətinə gəldikdə, hamınız bilirsiniz ki, mənim ölkəm UNESCO-nun müxtəlif fəaliyyətlərinin tərəfdarı olub və bundan sonra da belə olacaq".

# UNICEF-in Azərbaycan nümayəndəliyi Ombudsman Aparatı ilə əməkdaşlığın daha da inkişafı üçün səylərini artıracaq

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva UNICEF-in Azərbaycandakı yeni nümayəndəsi Aleks Haykens ilə görüşüb.



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tanışlıq məqsədi daşıyan görüş zamanı Ombudsman Aparatı ilə UNICEF-in ölkə nümayəndəliyi arasında qarşılıqlı əməkdaşlıqla bağlı bir sıra məsələlər müzakirə edilib.

Ombudsman UNICEF-in ölkəmizdəki yeni nümayəndəsinə fəaliyyətində uğurlar arzulayıb və sıx əməkdaşlığın uğurla davam edəcəyinə əminliyini bildirib.

Görüşdə UNICEF-in 2021-2025-ci illər üzrə Ölkə Proqramının icrasında ombudsmanın rolu barədə danışılıb. Ombudsman çıxışı zamanı təsisatın fəaliyyətində uşaq hüquqlarının müdafiəsi sahəsində müraciət mexanizminin tətbiqi və Milli Preventiv Qrupun fəaliyyətinin dəstəklənməsi istiqamətində görülən işlər barədə qonağa geniş məlumat verib. Ombudsmanın 916 Çağrı Mərkəzi tərəfindən uşaqlarla bağlı şikayətlərin qəbulunda xüsusi yanaşma tətbiq edildiyi, uşaq hüquq pozuntuları ilə bağlı müraciətlərdə qeydə alınmış məlumatların təhlili əsasında müvafiq təkliflərin də hazırlandığı diqqətə çatdırılıb.

Ombudsmanın milli preventiv mexanizm mandatına uyğun olaraq uşaq müəssisələrinə keçirilən başçəkmələr zamanı maarifləndirici söhbətlər aparıldığı, müraciət mexanizmləri barədə ətraflı məlumat verildiyi vurğulanıb. S.Əliyeva ötən il Bakı, Gəncə, Quba, Lənkəran şəhərlərində yerləşən müəssisələrə keçirilmiş başçəkmələr çərçivəsində 123 uşaq arasında uşaq hüquqlarına dair biliklərin, Ombudsman Aparatı və Çağrı Mərkəzi haqqında ümumi məlumatlılıq səviyyəsinin öyrənilməsi, habelə uşaq iştirakçılığının artırılması məqsədilə sorğular keçirildiyini də nəzərə çatdırıb.

Bununla yanaşı, UNICEF nümayəndəsi uşaq hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə təsisatda ayrıca struktur bölmənin yaradılması və həmin sektorun fəaliyyət istiqamətləri barədə məlumatlandırılıb.

Görüş zamanı müzakirə mövzularından biri də ölkədə yuvenal ədliyyənin inkişaf etdirilməsi və bu sahədə hesabatın hazırlanması olub.

Yekunda UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri A.Haykens fəaliyyəti dövründə əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə səylərin artırılmasında maraqlı olduğunu qeyd edib.

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Nərimanov rayonunda şəhid ailələrinin üzvləri pulsuz göz müayinəsindən keçiblər

Oktyabrın 12-də Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyevin təşkilatçılığı ilə onun deputat seçildiyi 20 saylı Nərimanov ikinci seçki dairəsi ərazisində şəhid ailələrinin, qazilərin, habelə seçicilərin karantin rejiminin qaydalarına uyğun olaraq pulsuz göz müayinəsi təşkil edilib.





Birinci vitse-prezident Mehriban xanım Əliyevanın nəcib təşəbbüsünün və Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən xeyriyyə hərəkatının davamı olaraq "Dünyagöz" xəstəxanasının iştirakı ilə keçirilən müayinə zamanı 100-ə yaxın vətəndaş yerində yüksək səviyyədə müayinə olunub, onlara ilkin diaqnoz qoyulub.

Bundan başqa, əlavə müayinəyə və müalicəyə ehtiyacı olan şəxslərin təkrar müayinəsi də təşkil edilib.

Şəhid ailələri, qazilər, habelə ərazidə yaşayan vətəndaşlar təşkil edilmiş tədbirə görə minnətdarlıqlarını bildiriblər.

# Əli tək deyil

## Bu gün Masallı gəncləri Əli İbadov kimi qəhrəmanları özlərinə örnək bilirlər



Deyirlər, şəhidi olmayan xalq vətən məhəbbətindən, yurd sevgisindən məhrumdur. Azadlığı qanı, canı ilə qazanmayan millət hər vaxt kölə kimi gözüqırpıq, həyəcan içində yaşayır.

Vətənpərvərlik hissi, döyüş ruhu cənub bölgəsinin də gəncləri arasında hər zaman yüksək səviyyədə olub. İstər birinici Qarabağ, istərsə də 44 günlük Vətən müharibələrində bizim region da yüzlərlə şəhid verib.

1974-cü ildə Masallının Tüklə kəndində dünyaya göz açmış İbadov Əli İbad oğlu Birinci Qarabağ müharibəsində Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olub. O, 1991-ci ildə kənd orta məktəbini bitirmişdi. Bütün yeniyetmələr kimi Əlinin də arzuları vardı. Lakin ermənilərin Azərbaycana qarşı 1988-ci ildən başlayan əsassız ərazi iddiaları, törətdikləri qanlı cinayətlər Vətənin bütün qeyrətli oğulları kimi, Əlinin də həyatını dəyişdi.

1992-ci ildə hərbi xidmətə yollanan Əli İbadov Daxili Qoşunlarin tərkibində Ağdərədə bir çox kəndlərin azad olunmasında iştirak etdi. Döyüş gedən kəndlərdə yaralanmış igid əsgər hərbi hospitalda müalicəsi bitər-bitməz yenidən ön cəbhəyə yollandı, düşmənin atəş nöqtələrinin məhv edilməsində rəşadət göstərdi.

1993-cü il fevral ayının 4-6-da Ağdərə rayonunun Mehmanə kəndi ətrafında gedən ağır döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Əli İbadov igidliyi ilə elə-obaya gərəkli övlad, Vətənə layiqli oğul oldu! Şəhidliyi ilə hər kəsin başını uca edən, canından artıq sevdiyi Vətən uğrunda mərdlik nümunəsi göstərən Əli bununla özünə ölməzlik qazandı. Amma Əli tək deyil. 246-dan çox şəhidi olan, 4 igid oğlu "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülən Masallıda hər bir gənc torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçməyə hazırdır. İllər keçir, olanlar unudulur. Amma şəhidlər unudulmur. Xalqımız Vətən uğrunda canını qurban verən igid övladlarını həmişə yad edir, qəlblərində yaşadır.

***Aygül SADAYQIZI,***
***Yeni Azərbaycan Partiyasının fəalı***

# Daha 4 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib






Ağır yaralanan daha 4 qazimiz "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, həmin qazilər Ələkbərov Seymur Eyvaz oğlu, Mikayılov Ruzigar Namiq oğlu, Məmmədli Qiyas Rizvan oğlu, İbrahimov Samurat Nuru oğludur.

"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi qardaş ölkədə davam etdiriləcək.

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir. Xatırladaq ki, fond tərəfindən bugünə qədər 140 qazimiz müalicə üçün Türkiyəyə göndərilib. Onlardan 96-nın müalicə proseduru artıq uğurla yekunlaşıb və Vətənə qayıdıblar. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

"YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: *https://yashat.gov.az/report-/tableau*

Həmçinin fondun 8110 "Çağrı Mərkəzi" fəaliyyət göstərir.

# Əməkhaqqının birgə maliyyələşdirilməsi proqramı üzrə 1044 şəxsə iş yerlərinə göndəriş verilib

## Onların əksər hissəsi şəhid ailəsi üzvləri və qazilər, əlilliyi olanlardır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi əməkhaqlarının bir hissəsinin birgə maliyyələşdirilməsi proqramı çərçivəsində sentyabr ayında daha 104 şəxsə iş yerlərinə göndəriş verib.

Ümumilikdə proqram üzrə verilən göndərişlərin sayı isə 1044-ə çatıb. İşlə təminat üçün göndəriş verilənlərin əksər hissəsi şəhid ailəsi üzvləri, müharibə iştirakçıları, əlilliyi olan şəxslərdir.

Proqram üzrə artıq 366 nəfərlə işəgötürənlər arasında əmək müqaviləsi bağlanıb və əmək fəaliyyətinə başlayıblar. Hazırda göndəriş verilən digər işsiz vətəndaşlarla da əmək müqavilələrinin bağlanması prosesi davam edir.

"Məşğulluq" altsisteminə vakansiyalar yerləşdirən, müəyyən edilmiş prioritet iqtisadi sahələr üzrə vakansiyası olan işəgötürənlər proqrama *https://forms.gle/2kkhuMqDU-HUuSytB6* linkinə daxil olaraq müraciət edə bilərlər. Bu proqram əsasında işlə təmin edilən şəxslərin 2 il ərzində əməkhaqlarının bir hissəsi Dövlət Məşğulluq Agentliyi tərəfindən maliyyələşdirilir.




# Gəncədə Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş ümumşəhər tədbiri keçirilmişdir





Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyevin, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürkün, millət vəkilləri Pərvin Kərimzadə və Müşfiq Cəfərovun, idarə, müəssisə, təşkilat və hüquq mühafizə orqanları rəhbərlərinin, həmçinin ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə dahi şairin şəhər mərkəzində ucaldılmış abidəsi ziyarət edilmiş, abidə önünə gül dəstələri düzülmüşdür.



Şəhərin Cavadxan küçəsində təşkil olunmuş "El şənliyi"ndə Gəncə Dövlət Dram Teatrı aktyorlarının təqdimatında "Xəmsə" adlı ədəbi-bədii kompozisiya göstərilmişdir. Sonra tədbir "Ozan" qədim milli musiqi alətləri ansamblının, "Xəmsə" ritm qrupunun, "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının, "Gəncə qönçələri" və digər musiqi kollektivlərinin çıxışları ilə davam etmişdir.

Ümumşəhər tədbirində Gəncə Uşaq Rəssamlıq və Uşaq İncəsənət məktəblərinin, habelə Uşaq Gənclər İnkişaf Mərkəzi yetirmələrinin əl işlərindən ibarət sərgi də nümayiş olunmuşdur.

"Gəncə sənətkarları" bölməsində keramika üzərində rəsm, səbət toxuma, ağac üzərində oyma, misgərlik, dulusçuluq və digər qədim sənət növləri, Gəncə Dövlət Kukla Teatrı kollektivinin təqdimatında Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından "Xeyir və Şər" nağılı nümayiş edilmişdir. Tədbirdə Gəncə idmançılarının şahmat, ağırlıq qaldırma, güləş və digər növlər üzrə çıxışları da maraqla qarşılanmışdır.

Tədbirdə Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət Evinin, Samux rayon Sərkar Uşaq Musiqi Məktəbinin kollektivləri də iştirak etmişlər. Gəncə Dövlət Filarmoniyasının önündə konsert proqramı ilə davam edən tədbir çərçivəsində Gəncə Urban Mərkəzində "GƏNCƏSƏNƏT" və "GƏNCƏKİTAB" sərgi-satış yarmarkası da təşkil olunmuşdur. Sərgi-satış yarmarkasında müxtəlif növ sənətkarlıq və incəsənət nümunələri, habelə xeyli sayda yerli və dünya ədəbiyyatı inciləri satışa çıxarılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbayvan"***

# BP şirkətinin Milli Olimpiya və Paralimpiya komitələri ilə əməkdaşlığının onillik yubileyinə həsr edilmiş tədbir keçirilib

Oktyabrın 12-də Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında BP şirkətinin MOK və Azərbaycan Milli Paralimpiya Komitəsi (AMPK) ilə əməkdaşlığının 10 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, AMPK-nın prezidenti İlqar Rəhimov, MOK baş katibinin müavini Azər Əliyev və BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Cons, olimpiyaçılar və paralimpiyaçılar iştirak ediblər.

Tədbirdə çıxış edən Çingiz Hüseynzadə dünyanın ən böyük enerji təchizatçılarından olan BP şirkəti ilə əməkdaşlığın Londonun evsahibliyi etdiyi XXX Yay Olimpiya və XIV Yay Paralimpiya oyunları ərəfəsində başlandığını bildirib. Diqqətə çatdırılıb ki, ötən 10 il BP şirkətinin təkcə Olimpiya və Paralimpiya komitələri, həmçinin olimpiyaçı və paralimpiyaçılar üçün sponsorluğu ilə deyil, həm də bir sıra mühüm əməkdaşlıq layihələri ilə diqqəti cəlb edir: "BP şirkəti ilə əməkdaşlıq yüksək səviyyədə davam edir. Ümid edirik ki, bu əməkdaşlıq bundan sonra daha da güclənəcək. Qabaqcıl idmançılarımız BP-nin təqaüdlərini alırlar. Bu əməkdaşlıq təkcə BP ilə MOK arasında deyil, həm də ölkələrimiz arasında davam edir".

Çingiz Hüseynzadə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən ruhlanan idmançılarımızın Tokio Yay Olimpiya və Paralimpiya oyunlarında yüksək nəticələr qazandıqlarını vurğulayıb.

AMPK-nın prezidenti İlham Rəhimov BP şirkəti ilə on ildən artıq müddətdə əməkdaşlıq çərçivəsində bir sıra layihələrin həyata keçirildiyini bildirib. O, 2019-cu ildə keçirilən "Yenilməzlər" adlı beynəlxalq qala tədbirində fiziki məhdudiyyətli insanların həyat hekayələrinin kölgə teatrı, ultrabənövşəyi şou və pantomima tamaşaları vasitəsilə təqdim edərək uğur yolunu göstərməyə çalışdıqlarını qeyd edib. Diqqətə çatdırıb ki, BP şirkəti bu böyük tədbirin, eləcə də bir sıra yarışların təşkilinə böyük dəstək verib. Müxtəlif idman yarışlarının, xüsusilə beynəlxalq turnirlərin, Qran-prilərin, Uşaq Paralimpiya Oyunlarının keçirilməsində BP bizə böyük dəstək verib. Azərbaycan dövlətinin ölkəmizdə Paralimpiya hərəkatının inkişafına ən yüksək səviyyədə diqqət və qayğı göstərdiyini vurğulayan İ.Rəhimov biznes qurumlarının komitənin layihələrində yaxından iştirak edərək idmanın inkişafına dəstək vermələrinin önəmini vurğulayıb.

BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Cons komandamızın Tokio Paralimpiadasında tarixi nəticə qazandığını vurğulayaraq deyib: "Paralimpiya Oyunlarında 19 medal qazanan Azərbaycan idmançılarının tarixi nəticə əldə edərək 163 ölkə arasında ilk 10-luğa daxil olması möhtəşəm nailiyyətdir. Ötən illər ərzində ən vacib idman tədbirlərində - "London-2012", "Bakı-2015", "Rio-2016", "Bakı-2017", nəhayət, "Tokio-2020"də bir yerdə olduq, birgə fəaliyyət göstərdik. Səfir idmançıların arxasında dayanmaq və onların Azərbaycan uğrunda necə yarışdıqlarının şahidi olmaq bizim üçün şərəf idi".

Sonra idmançılar Oloxan Musayev, Hacı Əliyev və digərləri çıxış edərək pandemiya dövrünün çətinliklərinə baxmayaraq, Azərbaycan komandasının Olimpiya və Paralimpiya oyunlarında uğurla çıxış etdiklərini bildiriblər.

Daha sonra BP şirkətinin MOK və AMPK ilə əməkdaşlığının 10 illik yubileyi münasibətilə idman ictimaiyyətinin nümayəndələrinə, olimpiyaçılara və paralimpiyaçılara xüsusi hədiyyələr təqdim edilib.

# Külli miqdarda narkotik vasitənin İrandan Azərbaycana keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədlərinin etibarlı mühafizəsi, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi, qaçaqmalçılıq, narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində tədbirləri davam etdirir.

DSX-nin Mətbuat mərkəzindən verilən məlumata görə, Xidmətin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin və Sahil Mühafizə bölmələrinin əməkdaşlarının sayıqlığı nəticəsində təxmini çəkisi 102 kiloqram 424 qram narkotik vasitəyə, psixotrop və güclü təsirli dərman preparatlarına bənzər maddələrin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Dövlət sərhədinin gücləndirilmiş mühafizəsinin təmin edilməsi üzrə həyata keçirilmiş tədbirlər nəticəsində oktyabrın 11-də Biləsuvar rayonunun Biləsuvar kəndi istiqamətində dövlət sərhədinin yaxınlığında 4 bağlamadan təxmini çəkisi 19 kiloqram 600 qram olan, narkotik vasitəyə, psixotrop və güclü təsirli dər-



man preparatlarına bənzər maddələr aşkarlanaraq götürülüb.

Həmin gün saat 20:40 radələrində eyni ərazidəki sərhəd zastavasının xidməti sahəsində üç nəfər naməlum şəxs tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədinin pozulması sərhəd naryadı tərəfindən aşkar olunub. Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazilər qapadılıb. Sərhəd naryadları tərəfindən sərhəd pozucularının təqibi başlanıb, hadisə yeri və yaxın ərazilər nəzarətə götürülüb.

Sərhəd pozucularından biri ərazidən uzaqlaşmağa çalışarkən üzərində idman çantası ilə saxlanılıb. Digər iki nəfər isə sərhəd naryadlarının "Dayan" əmrinə tabe olmayaraq əllərindəki qaçaqmalı yerə atıb, havanın qaranlıq, ərazinin sıx qamışlıq və relyefin mürəkkəb olmasından istifadə edərək geriyə qaçıblar.

Araşdırma zamanı saxlanılan şəxsin İran İslam Respublikasının vətəndaşı 1988-ci il təvəllüdlü Şahmüqəddəm Cəfər Həsən olması müəyyənləşdirilib. Onun əlindəki çantaya və ərazidən götürülmüş bağlamalara baxış zamanı təxmini çəkisi 35 kiloqram 590 qram narkotik vasitəyə, psixotrop və güclü təsirli dərman preparatlarına bənzər maddələr aşkarlanıb.

Oktyabrın 12-də saat 07:45 radələrində Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsini həyata keçirən sərhəd gözətçi gəmisi tərəfindən su səthində bir ədəd şübhəli bağlama aşkar olunub. Bağlamaya baxış zamanı ümumi çəkisi 47 kiloqram 234 qram narkotik vasitəyə, psixotrop tərkibli və güclü təsirli dərman preparatlarına bənzər maddələr aşkarlanaraq götürülüb.

Həmin faktlar üzrə hazırda əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

***"Azərbaycan"***










# Mədəniyyət





● Qarabağ Azərbaycandır!

## Qarabağın mədəniyyət mərkəzi əvvəlki şöhrətinə qovuşdu



**Qədim tarixi, zəngin mədəniyyəti olan, gözəl Azərbaycan şəhəri Şuşanın xoş günləri başlayıb. Otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalında qalmış, nəhayət, ötən il noyabrın 8-də müzəffər Azərbaycan Ordusu tərəfindən azadlığa çıxarılan bu şəhər artıq böyük quruculuq işlərinin, möhtəşəm tədbirlərin şahidinə çevrilir.**

1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilənədək Şuşa şəhərində hər il təşkil olunan daha bir tədbir də yenidən düzənləndi. Belə ki, işğaldan azad edildikdən sonra ilk dəfə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada "Vaqif Poeziya Günləri" keçirildi.

Xatırladaq ki, 1982-ci il yanvarın 14-də Azərbaycanın ozamankı rəhbəri Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə xalqımızın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olub. Məhz bu səfər çərçivəsində Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada "Vaqif Poeziya Günləri" keçirilib.

Məqbərənin açıldığı gündən 39 il sonra, bu il yanvarın 14-ü Şuşanın tarixində daha bir əlamətdar gün oldu. Həmin gün Şuşa şəhərinə səfəri zamanı məqbərəni ziyarət edən Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə start verildi.

Görkəmli Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimi isə avqustun 29-da oldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak etdilər, görülən işlərlə tanış oldular. Həmin gün Şuşa şəhərində Molla Pənah Vaqifin büstünün də açılışı oldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, Molla Pənah Vaqifin 1957-ci ildə tuncdan hazırlanan büstü 1958-ci ildə Cıdır düzünə yaxın ərazidə qəbirüstü abidə kimi yerləşdirilib, daha sonra 1976-cı ildə şairin Şuşadakı evinin yaxınlığına köçürülüb. 1982-ci ildə Vaqifin məqbərəsinin açılışından əvvəl büst və onun ətrafı təmir edilib, abidənin postamenti dəyişdirilib. Büst 1992-ci ildə Şuşa şəhərinin işğalı zamanı erməni vandalizminə məruz qalaraq dağıdılıb. Ölkə rəhbərinin göstərişinə əsasən, abidə bu il onun müəllifi, Əməkdar incəsənət xadimi Həyat Abdullayevanın ilkin eskiz layihəsi əsasında yenidən qurulub. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan büst əvvəlki yerinə qaytarılaraq Molla Pənah Vaqifin Şuşadakı evinin yaxınlığında quraşdırılıb.

Avqustun 30-da işğaldan sonra Şuşada ilk poeziya bayramı keçirildi. Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Vaqif Poeziya Günləri"nin rəsmi açılışında iştirak ediblər. Dövlət başçısı açılış mərasimində çıxışında bu günün ölkəmizin həyatında çox əlamətdar bir hadisə olduğunu bildirdi. Cənab İlham Əliyev Vaqifin məqbərəsinin bütün digər tarixi abidələrimiz kimi işğal edilmiş torpaqlarda erməni vandalizminə məruz qaldığını vurğuladı: "Bildiyiniz kimi, Molla Pənah Vaqifin məqbərəsinin Şuşada ucaldılması qərarını Ulu Öndər Heydər Əliyev vermişdir. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də burada qarlı, şaxtalı havada bu məqbərənin açılışı olmuşdur. Bu, sıradan olan hadisə deyildi. Çünki o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi. Bildiyiniz kimi, uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar. Halbuki bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. Onu da nəzərə almalıyıq ki, Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi. Bütün bunlara baxmayaraq, Ulu Öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmışdır və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdır".

Şuşa işğala məruz qalandan sonra bütün tarixi-mədəni abidələrimiz kimi Vaqifin məqbərəsi işğalçı ermənilər tərəfindən uçurulub dağıdıldı. Dövlət başçısı diqqətə çatdırdı ki, Şuşanın işğalı xalqımızın böyük faciəsi idi: "Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır. Şuşanın işğalından sonra digər rayonlar, digər şəhərlər işğala məruz qaldı".

Ancaq Azərbaycan dövləti, Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində düşmənə layiq olduğu cavabı verdi. Dövlət başçısı çıxışında böyük qürurla bu tarixi zəfərdən danışdı: "Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik. Bu gün Şuşa artıq dirçəlir və Şuşanın dirçəlməsi üçün əməli addımlar atılır".

Şuşanın bərpasının yanvarın 14-dən başlandığını qeyd edən Prezident İlham Əliyev qısa müddət ərzində görülmüş böyük işlərdən danışdı. Dövlət başçısı dedi: "Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt "Vaqif Poeziya Günləri" keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. "Vaqif Poeziya Günləri" keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq".

Avqustun 31-də "Vaqif Poeziya Günləri"nin ikinci günü də maraqlı proqramla davam etdi. Xalq şairlərinin, eləcə də orta nəsil və gənc şairlərin çıxışları, muğam sənətkarlarının ifaları dinlənildi. Tədbir çərçivəsində "Nizamidən Vaqifə" adlı poetik kompozisiya təqdim olundu. Qarabağın mədəniyyət mərkəzi, musiqi beşiyi olan Şuşada builki "Vaqif Poeziya Günləri"nə "Qarabağ, ana yurdum" mahnısı ilə yekun vuruldu.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Ədəbi simalar

**Ömrünün ən gözəl çağlarını ədəbiyyata, jurnalistikaya həsr edib. Nə yazıbsa, doğrunu yazıb. İstər yazıçı, şair, istərsə də jurnalist kimi həqiqəti qələmə alıb. Buna görə onu tənqid edənlər də olub, inciyənlər də. Ancaq geniş oxucu kütləsinin rəğbətini qazanıb, Azərbaycan ədəbiyyatında öz yerini müəyyənləşdirib.**

**Yazıçı, dramaturq, şair, jurnalist və tərcüməçi Seyfəddin Dağlı (Abbasov) 1921-ci ilin avqustunda Xızıda dünyaya göz açıb. Ailənin ilk övladı olub. On üç günlüyündə anası Qəmər vəfat edib. Dövlət qulluqçusu olan atası Əlağa Abbasov müxtəlif rayonlara işləməyə göndərildiyindən balaca Seyfəddin qalıb ata babası Bəhlul kişinin ümidinə...**



## Nə yazıbsa, doğrunu yazıb

Bir müddət sonra atası yenidən evlənib. Seyfəddini əvvəlki kimi babası böyüdüb. Bəhlul kişi xeyirxahlığı, səxavəti ilə hörmət qazanmışdı. Özü savadsız idi, istəyirdi nəvəsi yaxşı təhsil alsın. Seyfəddin hələ kiçik ikən Bakıya köçməli olurlar. O, orta məktəbi bu şəhərdə oxuyub.

Ağlı kəsəndən yanında babasını görüb. Ona həddindən artıq bağlanıb. Ancaq taleyi babasını da ona çox görüb. Seyfəddin uşaq ikən Bəhlul kişi vəfat edib.

Atasının ikinci evlilikdən beş uşağı - iki oğlu, üç qızı dünyaya gəlmişdi. Onlarla çox mehriban idi.

Babası onu ötkəm böyütmüşdü. Seyfəddin uşaq vaxtından tez inciyən olub. Hərdən acıq eləyəndə xətrini çox istədiyi qohumu, yazıçı-dramaturq Cəfər Cabbarlının evinə gedərmiş. Cəfər Cabbarlı da onu əzizləyib: "Gəl, qal bizdə, mənim oğlum ol", deyərmiş.

Cəfər Cabbarlının gənc yaşında dünyasını dəyişməsi on üç yaşlı Seyfəddinə də böyük dərd olur. Onu çox sevən, qayğı göstərən insanlardan birini də itirir. Daha ərklə üz tutduğu o evə də əvvəlki kimi tez-tez getmir. Başı dərslərinə qarışır. Elə bədii yaradıcılığa da o illərdə başlayır. Orta məktəbi bitirib, texnikuma daxil olur. Tələbə ikən əmək fəaliyyətinə başlayır. İlk iş yeri "Kommunist" qəzetinin redaksiyası olur. İllər keçdikcə həmin qəzetdə müxbir, sonra şöbə müdiri və nəhayət, məsul katib işləyir.

1941-ci ildən 1946-cı ilədək hərbi xidmətdə olub. Həmin dövrdə "Ordu" qəzetində ədəbi işçi, "Diviziya" qəzetində redaktor işləyib. Sovet ordusunun tərkibində İrana gedib. Sonra Moskvada Hərbi Akademiyaya qəbul olunub. O vaxtlar artıq qəlbində saxladığı sevgisini aşkar etmək fikrinə düşüb. Ancaq bu barədə qızın özü ilə deyil, anasıyla danışmaq qərarına gəlib...

Cəfər Cabbarlının həyat yoldaşı Sona xanımın direktoru olduğu Teatr Muzeyinə gedib. İstəyini bildirmək üçün həyəcanını gizlətməyə çalışsa da, alınmayıb. Axır ki, yarızarafat-yarıgerçək Sona xanımdan qızı Gülarə xanımı istəyib. Sona xanım onu uşaqlıqdan tanıyırdı. Xasiyyətini bəyənir, xətrini çox istəyirdi. Bu izdivac da ürəyincəydi. Seyfəddinin özünə də bunu bildirib: "Ancaq gərək əvvəlcə Gülarənin özüylə danışasan, onun fikrini öyrənəsən", deyib.

Seyfəddin Dağlı elə səhəri gün Gülarə xanımın təhsil aldığı universitetin qapısında dayanıb. Dərsdən çıxan qızı qarşılayıb. Ona qəlbini açıb...

1951-ci ildə nişanlanıblar. İkisi də tələbəydi. Ona görə toylarını 1953-cü ildə, Gülarə xanım universiteti bitirəndən sonra ediblər. Üç gün sonra Moskvaya yollanıblar. Seyfəddin Dağlı dərslərini davam etdirib. Akademiyanın əlaçı tələbələrindən olan Seyfəddin Dağlının güclü hafizəsi vardı. Partiya tarixini, digər dərsləri yaxşı mənimsəmişdi. O, Bakıda, Azərbaycan dilində təhsil almışdı. Amma qruplarındakı, hətta rus millətindən olan tələbə yoldaşları da ondan köçürürdülər. Məktəb yoldaşlarına hansı material lazım olurdusa, Seyfəddin Dağlıdan soruşurdular, o da hansı kitabın neçənci cildində neçənci səhifəni oxumalı olduqlarını deyirdi...

Seyfəddin Dağlı Moskvada təhsilini başa vurub Bakıya qayıdıb. Həm jurnalistlik, həm də bədii yaradıcılıq ilə məşğul olub.

İlk övladına onu boya-başa çatdıran babası Bəhlulun adını verib. İkinci oğluna Cəfər Cabbarlının ədəbi qəhrəmanlarından birinin - Altayın adını qoyublar. Qızı dünyaya gələndə isə o, çoxdankı arzusunu yerinə yetirib. Körpəyə anası Qəmərin adını verib.

O, 1956-1959-cu illərdə Dövlət Radio Komitəsində baş redaktor, sonralar isə "Bakı" telestudiyasının direktoru və sədr müavini vəzifələrində çalışıb. Seyfəddin Dağlının jurnalistlik fəaliyyətinin xeyli hissəsi "Kirpi" jurnalı ilə bağlı olub. O, həmin jurnalda uzun illər baş redaktor işləyib.

Bir çoxları kimi o da yaradıcılığa şeirlə başlamışdı. Sonralar bunu ardıcıl davam etdirmədi. Amma ara-sırasa şeir yazmaqdan da əl çəkmədi. Onun satirik şeirlərindən bəzilərinə musiqi də yazıldı. Bunların içərisində bəstəkar Cahangir Cahangirovun bəstələdiyi, müğənni Mirzə Babayevin oxuduğu "Çayçı" mahnısı daha çox məşhurdur.

1948-ci ildə "Dəniz kəşfiyyatçısı" adlı kitabı işıq üzü görüb. Sonralar "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək", "Təzə gəlin", "Kölgələr pıçıldaşır" pyesləri, "Bahar oğlu", "Məşəl", "Kəcil qapısı", "Sabiqlər" və digər kitabları geniş oxucu kütləsinə təqdim olunub.

İllər öncə həmsöhbət olduğum Gülarə xanım danışırdı ki, Seyfəddin Cənubi Azərbaycan həyatından bəhs edən "Kəcil qapısı", Cəfər Cabbarlıya həsr etdiyi "Bahar oğlu" kimi əsərlərin də müəllifidir, ancaq o daha çox satirik əsərlər yazıb: "Bu janr onun ruhuna uyğun idi. Məqalələrində, satirik hekayələrində, novellalarında gördüyü nöqsanları tənqid atəşinə tutub. Bəzən onun əsərlərini də tənqid edənlər olub. Buna görə kimsədən inciməyib".

Seyfəddin Dağlının ədəbi qəhrəmanlarının hər biri həyatdan götürülüb. Onları tanımaq üçün hər kəsin öz ətrafına diqqətlə baxması yetərlidir. Onun tənqid hədəfləri "Kirpi" jurnalında dərc etdirdiyi yazılarda konkretləşirdi. Gülarə xanım deyirdi ki, əlbəttə, bunlar Seyfəddinə bəzən başağrısı da gətirirdi: "Amma onu tutduğu yoldan çəkindirmək mümkün deyildi. Mərd adam idi. Buna görə ona hörmət edirdilər, xətrini istəyirdilər. Çox məsuliyyətli adam idi.

Gülarə xanım xatırlayırdı: "Heç vaxt boş yerə kimsəyə söz verməzdi. Vəd verdisə, hökmən yerinə yetirərdi. Yorulmaq nə olduğunu bilməzdi. Bir yandan evin qayğıları, bir yandan da redaksiyadakı işləri, bədii yaradıcılığı. "Kirpi"nin baş redaktoru olsa da, jurnalda məsul katibin işlərini də özü görürdü. Ona üz tutanları yanından naümid qaytarmazdı. Əlindən gələn qədər hamıya yaxşılıq edirdi. Amma bunun müqabilində ayağının altını qazanlar da oldu. Halbuki o adamların yolunda əziyyətlər çəkmişdi, onların da işini görmüşdü. Yaxşılığının əvəzində pislik, namərdlik görmək insana ağır zərbə olur. Nə qədər çalışırsan əhəmiyyət verməyəsən, ürəyinə salmayasan, mümkün olmur. Seyfəddin Dağlıya da gördüyü naqisliklər pis təsir edirdi". Naxələflər məqsədlərinə çatıb. Seyfəddin Dağlı işdən çıxıb. 1980-ci ilin mayından ömrünün sonunadək "Yazıçı" nəşriyyatında redaktor işləyib. O daha çox mənəvi zərbədən sarsılmışdı. Aldığı könül yarası izsiz ötüşmədi. Son vaxtlar ürəyi çox ağrıyırdı. Təzyiqinin yüksəlməsindən şikayətlənirdi. Gülarə xanım təəssüflə deyirdi ki, hər şeyi unutsaydı, bəlkə ürəyi də onu bu qədər incitməzdi, amma o, heç nəyi yaddan çıxara bilmirdi...

O, ailəcanlı olub. Həmişə gərgin işləsə də, ailəsindən sevgisini, qayğısını heç vaxt əsirgəməyib. 1983-cü ildə Seyfəddin Dağlı həyat yoldaşı Gülarə xanımla toylarının 30 illiyini qeyd etməyə hazırlaşırdı. Artıq övladlarının ikisi ailə qurmuşdu. Nəvə sahibi idilər. Amma xoş günlərinə ürəkdolusu sevinə bilmirdilər. Çünki Seyfəddin Dağlının ürəyi vəfasızlıq edir, onları təşvişə salırdı. Yanvarın 18-i ürək ağrıları şiddətlənir. Seyfəddin Dağlı həmin gün vəfat edir.

Seyfəddin Dağlının elə komediya, dram və başqa əsərləri var ki, çap olunmayıb. Onların arasında yarımçıq qalanı da var. Amma yazıçının "Şirin duz" əsərini çap etdirmək arzusu qızı Qəmər xanımın sayəsində həyata keçib. Seyfəddin Dağlı həmin əsərini 1950-ci illərdə yazmağa başlayıb. Müxtəlif vaxtlarda hissə-hissə qələmə alıb. Əsərin xəstəxanada üzünü köçürmək niyyətindəydi. Ömrü buna yetmədi. Gülarə xanım deyirdi ki, Seyfəddin Dağlı bu əsərin çap edilməsini çox arzulayırdı, amma "Şirin duz"un nəşrini görmək ona qismət olmadı: "Yaxşı ki, Qəmər bunu bacardı. O hələ institutda oxuyanda həmişə atasına kömək edər, onun əli ilə yazdıqlarını evimizdəki makinada kağız üzərinə köçürərdi. Makinada yaza-yaza atasının xəttinə, düzəlişlərinə alışdı. Atasının vəfatından üç-dörd ay sonra Qəmər "Şirin duz"u köçürməyə başladı. Çox çalışdı. Bəzən bir səhifəni doğru-dürüst köçürmək üçün günlərlə əlləşirdi. Bəzən kağızın kənarında qeyd olunan bir cümləni yerinə qoymaq üçün saatlarla axtarış aparırdı".

Müəllif özü görməsə də, "Şirin duz" çapdan çıxıb. Və Seyfəddin Dağlının digər əsərləri kimi, bu "Şirin duz" da oxucular tərəfindən maraqla qarşılanıb...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Təbii sərvətlərimiz

## Yeni turizm marşrutları Kəlbəcər və Laçından keçəcək

**Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına mühüm tarixi və strateji əhəmiyyət daşıyan səfəri zamanı dövlət başçısı bərpa və yenidənqurma işləri ilə tanış olmuş, bir sıra layihələrin təməlini qoymuşdur. Bu layihələrdən biri də Laçın rayonunun Qorçu kəndi ərazisində inşa ediləcək hava limanıdır. Hava limanı, ilk növbədə, bölgənin sosial-iqtisadi inkişafına təkan verməklə, bu yerlərdə turizm potensialının artırılmasına səbəb olacaq.**




Xatırladaq ki, aeroportun Qorçu kəndinin ərazisində tikilməsi təsadüfi deyil. Dövlət başçısı hava limanının təməlqoyma mərasimində bildirib ki, bu yerin üstünlüyü ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər artıqdır. Eyni zamanda Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq: "Burada böyük torpaq işləri aparılacaq. Bəzi təpələr kəsiləcək, bəzi boşluqlar doldurulacaq. Yəni torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır".

Azad edilmiş ərazilərdə bu gün dünya standartlarına uyğun geniş infrastruktur yaradılmasına, bərpa-yenidənqurma və quruculuq işlərinə start verilib. Aeroportların inşası isə gələcəkdə bu bölgənin iqtisadi, mədəni və turizmin inkişafında mühüm rol oynayacaq. Dövlət başçısı bildirib ki, Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr nəzərdə tutulan hava limanında 6 təyyarə dayanacağı inşa ediləcək. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq. Ən vacib məqamlardan biri isə bölgədə turizmin inkişafı ilə bağlıdır. Belə ki, Kəlbəcər tarixən faydalı qazıntı yataqları, səfalı təbiəti ilə yanaşı, İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə də məşhur olub. Ermənistanın işğalından sonra bölgənin təbii ehtiyatları qanunsuz istismar edilib. Hazırda "İstisu"nun öz əvvəlki şöhrətini qaytarmaq qarşıda duran əsas vəzifələrdən biridir.

Kəlbəcərin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriya tikilib. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb.

Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə istisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. Suyun temperaturu səthdə müsbət 74, dərinlikdə isə 90 dərəcəyə çata bilər. İstisu mineral bulaqları 12 bulaqdan ibarətdir. "İstisu" sanatoriyası hələ sovet illərində turistlərin ən çox üz tutduğu məkanlardan biri olub. Ekspertlər burada yay turizmi ilə yanaşı, qış turizminin də inkişaf etdirilməsi potensialının böyük olması qənaətindədirlər.

"Vəhşilər bu abidəni də söküblər. Qəribədir, burada "mir" yazılıb, bu abidə sülhü tərənnüm edirdi. Vəhşi düşmən bunu da sökübdür. Onu da söküb, bu binanı da söküb, hər tərəfi söküb. Biz bütün yerləri yenidən bərpa edəcəyik, yenidən həyat qayıdacaq", - Azərbaycan Prezidenti deyib.

Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yollarının tikintisi xüsusi əhəmiyyət daşıyır. Səfər zamanı Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlqoyma mərasimi olub. Dövlət başçısı bildirib ki, tunelin tikintisi çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir: "Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm də Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək".

Kəlbəcər-Laçın bölgəsi turistlərin marağına səbəb olan tarixi-mədəni abidələrlə zəngindir. Kəlbəcər rayonunda Gəncəbasar monastırı (XIII əsr), Tərtər çayının sahilində Xudavəng monastırı (XIII-XVII əsrlər) dünya əhəmiyyətli memarlıq abidələrinə aid edilir. Bölgədə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələrinə Kəlbəcərin Çıldıran, Qarnakar, Qocaqot kəndlərində alban məbədləri, ilk və orta tunc dövrünə aid yaşayış yerləri, Qubadlı rayonunun Əliquluuşağı kəndində Göyqala (V əsr), Mağara məbədi, Balalıəsənli kəndində sığınacaqlar (IV əsr), Laçın rayonunda Cicimli kəndində türbələr (XIV və XVIII əsrlər), kurqanlar (Dəmir dövrü), Qoçaz kəndində Mağara məbədi (V əsr), Zəngilan rayonunun Əmirxanlı kəndində Qız qalası (XII əsr), Məmmədbəyli kəndində səkkizguşəli türbə (XIV əsr) aid edilir. Kəlbəcər-Laçın bölgəsində, həmçinin yerli əhəmiyyətli tarixi-mədəni abidələr də çoxdur (məscid, məqbərə, qədim yaşayış yerləri və s.).

Yeni avtomobil və hava yollarının yaradılması yaxın gələcəkdə Azərbaycanı təkcə bölgənin deyil, dünyanın turizm istiqamətlərindən birinə çevirəcəyinə şübhə yaratmır.

Dövlət başçısının işğaldan azad edilmiş ərazilərə səfərləri təbii ki, Azərbaycanın gücünü və bu bölgənin qısa zamanda bərpa etmək potensialını göstərir. İqtisadçı ekspertlər hesab edirlər ki, Kəlbəcər və Laçın iqtisadi baxımdan Azərbaycan üçün vacib rayonlardandır. Kəlbəcər təbii ehtiyatlarına və Cənubi Qafqazda turizm potensialına görə seçilən rayondur. Kəlbəcər Cənubi Qafqazda çox azsaylı ünvanlardandır ki, fasiləsiz turizm xidmətləri təklif etmək imkanına malikdir. Burada yay-qış tarixi, mədəni, dini, sağlamlıq turizm məhsulları təklif etmək mümkündür.

Görünən odur ki, Kəlbəcər və Laçın rayonları bərpa və yenidənqurmadan sonra Azərbaycan iqtisadiyyatına daha böyük töhfələr vermək imkanlarına malik olacaq. Həm Kəlbəcər və Laçın arasında, həm də Kəlbəcərdə yeni nəqliyyat infrastrukturunun formalaşdırılması, Laçında beynəlxalq hava limanın inşası hər iki rayonun növbəti dövrdə strateji əhəmiyyətini daha da artıracaq. Laçında inşa ediləcək hava limanının bütövlükdə bölgənin potenisalının təbliğ edilməsi və təhlükəsizliyin formalaşması baxımından vacibdir. Bu, əslində, regionun təhlükəsizliyinə dəstəkdir. Eyni zamanda hər iki rayonun turizm potensialının böyük olması Laçın Beynəlxalq Hava Limanın rentabelli işləməsinə səbəb olacaq. Bu, artıq beynəlxalq uçuşların həyata keçirilməsi, turistlərin gəlməsi, həmin ərazidə istehsal olunacaq qeyri-neft məhsullarının daha böyük bazarlara çıxarılması deməkdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Aparatı balansında olan xidməti minik avtomobillərinin (11 ədəd Honda Accord, 2 ədəd Toyota Camry, 1 ədəd Nissan Teana, 1 ədəd Kia Optima markalı) əsaslı təmiri xidmətinin satın alınması üzrə

### *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 100 (bir yüz) manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri 02 noyabr 2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini isə 12 noyabr 2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri 15 noyabr 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***


## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC* (012) 440-46-94, (012) 441-19-91
*"Azərpoçt" ASC* (012) 598-49-55, (051) 225-02-13
*"Qaya" firması* (012) 566-77-80, (050) 214-40-53
*"Kaspi" MMC* (012) 432-39-55, (012) 510-82-24
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 08 oktyabr 2021-ci il tarixdə keçirilmiş "İnsan alverinə qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" adlı müsabiqə baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## İqlim dəyişikliyi ilə mübarizə bütün bəşəriyyətin işidir



İqlim dəyişikliyi və ətraf mühitin çirkləndirilməsi ilə bağlı problemlərlə mübarizə üzrə vəzifə təkcə bir qrup ölkə üzərinə qoyula bilməz. İqtisadi gücündən, coğrafi yerindən və tarixi məsuliyyətindən asılı olmayaraq dünya birliyinin bütün iştirakçıları bu istiqamətdə səylərini həyata keçirməlidirlər. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çində keçirilən BMT-nin bioloji müxtəliflik konvensiyası tərəflərinin 15-ci iclasının iştirakçılarına videomüraciətində bildirmişdir.

Rəcəb Tayyib Ərdoğanın dediyinə görə, hazırkı inkişaf mərhələsində bəşəriyyət bir sıra ekoloji çağırışlarla, o cümlədən iqlim dəyişikliyi, ətraf mühitin çirkləndirilməsi, ərzaq və su çatışmazlığı, flora və faunanın çoxnövçülüyünün azalması ilə üzləşmişdir.

Türkiyə lideri son vaxtlar planetin müxtəlif nöqtələrində baş vermiş və çoxsaylı qurbanlara və dağıntılara səbəb olmuş təbii fəlakətlərə diqqət yönəltmişdir.

Rəcəb Tayyib Ərdoğan vurğulamışdır ki, bütün bu kataklizmlər ekoloji çağırışların miqyasını nümayiş etdirir: "Şübhəsiz, təbii fəlakətlər təkcə ətraf mühitə və ekosistemlərin bütövlüyünə təhlükə yaratmır, həm də birbaşa qurbanlara və dağıntılara səbəb olur. Biz gözəl anlayırıq ki, təbiətdə hər şey bir-birinə bağlıdır. Bioloji çoxnövçülüyə vurulan zərbə, ətraf mühitin çirkləndirilməsi sonda ərzaq və su çatışmazlığı ilə nəticələnir". Türkiyə dövlətinin başçısı qeyd etmişdir ki, təbii fəlakətlər tez-tez miqrasiyanın indikatoruna çevrilir və toqquşmalara gətirib çıxarır. Hazırda "sivilizasiyanın beşiyi" - Aralıq dənizinin "miqrant qəbiristanlığına" çevrilməsinin səbəblərindən biri iqlim dəyişikliyidir. Buna görə də çox vacibdir ki, ilk növbədə iqlim dəyişikliklərinin səbəbləri aradan qaldırılsın və bu, bütün dünya birliyinin vəzifəsidir.

Çıxışının sonunda Ərdoğan ümidvar olduğunu bildirmişdir ki, bəşəriyyət qarşısında duran bütün problemlər ədalət və bərabərlik prinsipləri əsasında həllini tapacaq.



## Çində onlarla adam daşqınların qurbanı oldu

Çinin Şansi əyalətində baş vermiş daşqınlar nəticəsində 15 nəfər həlak olmuş, daha 3 nəfər itkin düşmüşdür. Bu barədə yerli KİV xəbər verir. Məlumata görə, leysan yağışlarının törətdiyi daşqınlar nəticəsində təxminən 1,8 milyon adam zərər çəkmiş, 120 min nəfərdən çox adam təhlükəsiz rayonlara təxliyə edilmişdir.

Bildirilir ki, 37 mindən çox ev qismən, yaxud tam dağılmış, kənd təsərrüfatı zəmilərini su basmışdır. Təbii fəlakətin vurduğu birbaşa ziyan 5 milyard yuandan (770 milyon dollar) çoxdur.

Son məlumata görə, daha 13 nəfər Hebey əyalətində həlak olub. Bir nəfər itkin düşüb.



## Kaliforniyada təyyarə yaşayış evlərinin üstünə düşüb

ABŞ-ın Kaliforniya ştatının Santi şəhərində kiçikmühərrikli təyyarə yaşayış evlərinin üstünə düşmüş və yanmışdır. Bu barədə "ABC News" telekanalı xəbər verir.

Qəza nəticəsində azı 2 bina, avtomobil furqonu və yanğınsöndürmə hidrantı zərər çəkib. Bir neçə tikili və avtomobil yanıb.

Telekanalın məlumatına görə, insident nəticəsində 2 nəfər həlak olub, daha 2 nəfər xəstəxanaya yerləşdirilib. Təyyarədə olan adamların sayı dəqiqləşdirilir.

Bundan əvvəl Texas ştatının Leyk-Uert şəhərində tədris-təlim təyyarəsi evlərin üstünə düşmüşdür. Hərbi təyyarənin qəzaya uğraması nəticəsində 2 ev dağılmışdır.

## BMT: Əfqanıstanda dönüş anıdır

Əfqanıstanda dönüş anı çatıb və beynəlxalq birlik bu ölkənin iqtisadi və humanitar böhranla üzləşməməsi üçün əlindən gələni etməlidir. Belə ki, Əfqanıstanda baş verəcək böhran bütün dünya üçün mənfi fəsadlara səbəb olacaq. Bu barədə BMT-nin Baş katibi Antonio Quterreş bildirmişdir. Təşkilatın mətbuat xidmətinin verdiyi məlumata görə, o demişdir: "Əfqanıstanda humanitar böhran artır və təxminən 18 milyon adamın həyatına təsir edir. Bu isə ölkə əhalisinin təqribən yarısıdır. Maliyyə vəsaiti, logistik problemlər və mürəkkəb geosiyasi vəziyyətə baxmayaraq, biz bu ölkədə böyük miqyaslı humanitar əməliyyat keçirməyi davam etdiririk. Mən əksəriyyətinin yerli vətəndaşlar təşkil etdiyi həmkarlarımızın fəaliyyətindən qürur duyuram".

Quterreş bildirmişdir ki, təkcə sentyabr ayında BMT 3,8 milyondan çox əfqanıstanlı üçün humanitar yardım göndərmişdir. 450 min nəfər təxirəsalınmaz tibbi yardım almışdır. Quraqlıqdan əziyyət çəkmiş 186 min nəfər su ilə təmin olunmuşdur.

BMT başçısının məlumatına əsasən, ötən həftə Ümumdünya Ərzaq Proqramının təmsilçiləri Kabildə, Heratda, Məzari-Şərifdə və Qəndəharda ərzaq yardımı paylamışdır. Bundan əlavə, Ümumdünya Səhiyyə Təşkilatının əməkdaşları ölkəyə çoxlu sayda dərman preparatları və tibbi cihazlar gətirmiş, habelə COVID-19-un müəyyənləşdirilməsi və müalicəsi üçün iki yeni laboratoriya açmışlar.



BMT həmçinin 36 min məcburi köçkünü və əhalinin aztəminatlı təbəqəsinin nümayəndələrini ilkin tələbat ərzaqları və nağd pulla təmin etmişdir. Əfqanıstanlı fermerlər heyvanları üçün 870 tondan çox yem almışlar.

Quterreşin qeyd etdiyi kimi, humanitar yardım hər gün insanların həyatını xilas edir, lakin Əfqanıstan iqtisadiyyatı çöksə, bu yardım faydasız ola bilər. Əfqanıstanın xaricdəki aktivləri hələ də dondurulmuş vəziyyətdədir. İqtisadi inkişaf məqsədilə edilən yardım isə dayandırılıb. Əfqanıstan iqtisadiyyatını canlandırmağın üsulu tapılmalıdır. Bunu beynəlxalq qanunvericiliyi pozmadan etmək olar.

BMT Baş katibinin dediyinə görə, elə şərait yaradılmalıdır ki, əfqanıstanlı mütəxəssislər və dövlət qulluqçuları xalqın rifahı üçün işləməyi davam etdirsinlər: "Mən Əfqanıstanda iqtisadi iflasa yol verməmək üçün bütün dünyanı əlindən gələni etməyə çağırıram".

## Azərbaycan Respublikası Maliyyə Nazirliyi inzibati binasının çardağında yanar hissələrin yanmayan maye ilə hopdurulması işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 20 (iyirmi) manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri 02 noyabr 2021-ci il saat 11:00 -a qədər, tender təklifi və bank təminatı sənədlərini isə 12 noyabr 2021-ci il saat 11:00- a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri 15 noyabr 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Hesablama Palatasının kollektivi Hesablama Palatasının sabiq sədr müavini Abbas Allahverdiyevə əzizi

**İRADƏ ALLAHVERDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu professor İlham Pirməmmədova anası

**HAVA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Texniki Universitetinin rektor müşaviri, professor İlham Pirməmmədova anası

**HAVA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Abbas Allahverdiyevə həyat yoldaşı

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Abbas Allahverdiyevə həyat yoldaşı

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin kollektivi xidmətin əməkdaşı Elşən Həsənova anası

**ƏLVAN SƏFƏRƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Abşeron Rayon Məhkəməsinin hakimi Habil Əhmədov Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və tədqiqat idarəsinin prokuroru Atakişi Pirməmmədova nənəsi

**HAVA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5611
Sifariş 1926
Qiyməti 40 qəpik